FİRUDİN NURULLABƏYLİ - ƏSƏDOV

# MİR MUSTAFA XAN

B A K I - 2007

Rəyçi: tarix elmləri doktoru, professor **Bəhruz Abdullayev**

Redaktor: **Maarif Teymurov**
Korrektor: **Sara Hüseynova**
Kompüter tərtibatçısı: **Təranə Baxşəliyeva**

**Firudin Nurullabəyli – Əsədov «Mir Mustafa xan»**
Elmi – publisistik tarixi oçerk.
Bakı: «İqtisad Universiteti» nəşriyyatı, 2007, 96 səh.

Kitab Azərbaycanın cənnətməkan diyarı olan Talış xanlığının tarixində böyük rol oynamış Mir Mustafa xanın əsli-nəcabəti və onun həyat yolu, xanlıq hakimiyyətinin şərəflə qoruyub saxlanılmasındakı xidmətindən bəhs edir.

Elmi-publisistik tarixi oçerkin XVIII əsr xanlıq tarixində şəxsi keyfiyyəti ilə tanınan Mir Mustafa xan barədə məlumata malik olmaq istəyənlər üçün maraqlı olacağı ümidindəyik.

*© «İqtisad Universiteti» - 2007*



downloaded from KitabYurdu.org

## REDAKTORDAN

XVIII əsr Azərbaycan üçün tarixi hadisələrin cərəyanına, dərin ziddiyyətlərinə görə təlatümlü bir dövrdür. Həmin əsrdən başlayaraq, bir vaxtlar Şərq dünyasında imperiya kimi tanınan Səfəvilər dövləti artıq tənəzzül məngənəsində əzilirdi. Səfəvi dövlətinə başçılıq edən şahlar onun əvvəlki şöhrətini saxlaya bilmədiklərindən dövlət zəifləmiş, şəraitdən istifadə edən Nadir şah isə bütün Səfəvi dövlətinin ərazisinə sahib olmuş, Səfəvi nəslindən olanları hakimiyyətdən kənarlaşdırmışdı. Əfşarlar nəsli Azərbaycanda at oynatmağa başlamışdı. Nadir şaha 1747-ci ildə edilmiş sui-qəsd və onun faciəli şəkildə ölümü Azərbaycanda xanlıq hakimiyyətini yaratdı. Belə xanlıqlardan biri də Talış xanlığı idi. Mir Mustafa xan Talışinski xanlığın qorunmasında müstəsna rol oynamışdı. Kitaba ön söz yazmağı mənə təklif edən müəllifin həmin xanlıq haqqında bir sıra tədqiqat işləri diqqətimi cəlb etdi. Həmin tədqiqatlarında müəllif Mir Mustafa xanın bir şəxsiyyət kimi tarixdəki rolunu əsaslı şəkildə göstərmişdir.

Oxuculara təqdim olunan «Mir Mustafa xan» əsəri, arxiv sənədləri əsasında tarixi şəxsiyyət haqqında yazılmış publisistik tarixi oçerkin tələb etdiyi məqamları təsvir etməklə daha çox diqqəti cəlb edir. Kitabın nəşr olunması vacibdir. Həmin kitabın böyük oxucu kütləsi tərəfindən maraqla qarşılanacağına inanıram. Müəllifə gələcək tədqiqatlarında uğurlar arzulayıram.

Cənub bölgəsinin ağsaqqalı, Talış diyarının toponomiyası, etnoqrafiyası və tarixini ətraflı bilən, Prezident təqaüdçüsü Hacı Mirhaşım Talışlının respublikamızın cənubunda füsunkar təbiəti ilə də tarixiləşən bu



ərazinin keçmişi və şəxsiyyətləri haqqında fikirləri də çox maraqlıdır. Bu barədə 5 oktyabr 1998-ci ildə Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin sözlərini əsas götürən M.Talışlı bizim xahişimizlə, tarixi şəxsiyyət olmuş Mir Mustafa xanın nəsil şəcərəsindən öz qeydlərini də yazmışdır.

Hacı Mir Haşım Talışlının «Mir Mustafa xan Qaraxan oğlu» adlı yazısını olduğu kimi kitaba daxil etməyi özümüzə mənəvi borc bildik.



downloaded from KitabYurdu.org

## HACI MİR HAŞIM TALIŞLI -
## - PREZİDENT TƏQAÜDÇÜSÜ

## MİR MUSTAFA XAN QARAXAN OĞLU

Respublikamızın cənubunda XVIII əsrin ortalarında Talış diyarı bir xanlıq ərazisi kimi tanınmağa başlamışdır. 5 oktyabr 1998-ci il tarixdə ümummilli liderimiz Heydər Əlirza oğlu Əlyiev Lənkəranda seçicilərlə görüşü zamanı demişdi:

- Siz Azərbaycanın bu gözəl diyarını qurub yaradanlarsınız. Siz Talış xanlıqlar – generallar sülaləsinin varislərisiniz. Siz İkinci dünya müharibəsində qəhrəmanlıq göstərmiş, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adı almış general Həzi Aslanovun varislərisiniz, onun doğmalarısınız, onun həmyerlilərisiniz.

Azərbaycanın Talış dağları, bu Talış diyarı Azərbaycan xalqının böyük insanlarını, böyük şəxsiyyətlərini yetişdirmişdir. Siz burada – Lənkəranda, bu Talış dağlarının ətəyində Azərbaycan elmini, mədəniyyətini, təhsilini inkişaf etdirən dəyərli insanlar yetişdirmisiniz. Biz bunlarla fəxr edirik, bütün Azərbaycan xalqı da bu dəyərli insanlarla fəxr edir. «Lənkəran Heydər Əliyevin siyasətinin işığında» (Bakı, «Ozon» nəşriyyatı. 2004-cü il, səh. 46).

Rəhbərin Talış dağları kimi qeyd etdiyi bu yer – keçmiş Talış xanlığı ərazisi haqqında, onun keçmişindən bəhs edənlər (Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, Səid Əli Kazım bəy oğlu və b.) Talış xanlarının şəcərəsini də göstərmişlər. Yaşlılarımızın dediklərinə görə Mir Mustafa xanın atası «Qaraxan» ləqəbi ilə tanınan Seyid Cəmaləddinin babası Seyid Abbas bəydir ki, Talışın



Xalxal-Nəmin istiqamətindən Xarxatan kəndinə köçmüşdür. Bir sıra yazılarımızda müxtəlif şahlar və ölkə başçılarının möhürü ilə təsdiqlənmiş nəsil şəcərələri var idi. «Əxbarnamə», «Cəvahir-nameyi - Lənkəran» (və onun daha dolğun variantı) «Səidiyyə» kitablarının verdiyi məlumata görə Mir Mustafa xan nəsil silsiləsi etibarı ilə İman Hüseynə (ə.s) yetişir. Əsrimizə qədər bu nəslə» mənsub olanlarımızın hamısı öz adından sonra «Seyyid-əl-Hüseyni» ifadəsinidə qeyd edirlər. O cümlədən Mir Mustafa xandan qalan və əlimizdə olan qızıl haşiyələrlə əlyazma - «Qurani-Kərim»in sonunda «Mir Mustafa xan Seyid Əli Hüseyni» kimi adını qeyd etmişdir və bu müqəddəs kitabın oğlan tayfalarımızdan birində qalmasını vəqf etmişdi. Babam Mir Mustafa axunda, (O, Talışxan Mir Mustafa xanın oğlu Mir Hüseyn xanın oğlu Mir Əli xanın oğlu idi – general Mir Kazım xanın doğma qardaşı) və ondan da Mir Murtuza müəllimə, ondan da məndə qalan həmin müqəddəs kitab «nəslimizin oğul tayfasında qalmalıdır» vəsiyyətinə əməl edib (yazının 80 il keçdiyi üçün) «ömrə vəfa yoxdur» deyərək, avtoqraf yazılmış müqəddəs kitabı oğul tayfamızın nümayəndəsinə verdik. Kitabı mühafizə etmək üçün nəslimizin daha cavan oğul övladına – əmim oğlu, tibb elmləri doktoru, professor Əzizağa Talışinskaya etibar etdim.

Böyüklərimizin bizə çatdırdığı fikrə görə, Seyid Cəmaləddinin (Mir Mustafa xanın atasının) adına «Qara xan» ləqəbini ona böyük ərazini idarə etmək tapşırığına görə vermişdilər. Qara xan – böyük xan deməkdir. Bəzi böyüklərimizin dediyinə görə və yazılarda da göstərilənlərə görə ona (Cəmaləddin) Mirzə



downloaded from KitabYurdu.org

bəy də deyirdilər. Çoxları guya onun üzünün dərisinin qara olduğu üçün deyir. Əlbəttə, bu doğru deyil. O, heç də üzü qara kişi olmayıb və belə bir şəxsə üzünün qara rənginə görə deyilsə idi, bu təhqir hesab olunardı. «Qara bağ – Böyük bağ olduğu üçün, əgər «qara» sözü rəng mənasında işlənməsə idi, talışca ona «Siyo xan» deyilərdi. Lakin talışca danışanlar da onun adını «Qaraxan» adlandırmışlar.

Mir Mustafa xan 1786-ci ildən 1814-cü ilədək, yəni 27 il xanlığa başçılıq etmişdir. Mir Mustafa xanın İran şahı Ağa Məhəmməd şaha və onun Qarabağda ölümündən sonra, qardaşı oğlu Fətəli şaha qarşı durmasının əsas səbəbi budur: İran sərbazları (əsgərləri) şahsevənləri Talışın var - dövlətini, mal –qarasını, hətta gözəl qız və gəlinlərini qaçırdırdılar. Bu hadisə təkcə Talışda deyildi, Bakıda, Qarabağda, Gəncədə və digər xanlıqlarda da baş verirdi. Buna görə bütün xanlıqlardan, xüsusi ilə Mir Mustafa xandan İran şahına məktublar və elçilər vasitəsi ilə şikayətlər və narazılıqlar çatdırılır, lakin şah bu narazılıqları saya almır. Ona görə xanlıqlar arasında əhdinamə bağlanır. İran xanlığından tamamilə üz döndərirlər və Rusiya dövlətindən yardım istəyirlər. Yəqin ki, sonrakı hadisələr – Rusiya-İran müharibəsi və onun son vaxtlara qədərki nəticəsi hamıya məlumdur. 1813-cü ildə «Gülüstan» sülh müqaviləsindən sonra bütün xanlıqların ərazisində – yəni Azərbaycanda ruslar «qayım – qədim» olurlar. 1796-cı ildə Mir Mustafa xana «general – mayor», 1812-ci ildə isə Rusiya imperatoru I Aleksandrın fərmanı ilə «general – leytenant» rütbəsi verilir. Bu aldadıcı rütbələrlə yanaşı rus generalları arasında ciddi narazılıqlar başlanır. Mir Mustafa xan və onun övladları arasında da ixtilaflar yaradılır. «Əxbarnamə»də yazılmışdı: «Ruslar Mir Mustafa xan tayfasını elə hörmətdən saldılar ki, rəiyyətlərlə üz-üzə gəldikdə onlar salam verməyib, istehza edirdilər» («Əxbarnamə», Bakı, 1975. səh. 109).

Mir Mustafa xanın şəxsiyyəti haqqında aşağıdakı məlumatı da bilmək lazımdır. Talış xanlığı barədə deyilənlərdən məlum olur ki, o, 1814-cü ildə çox müəmmalı şəkildə vəfat edir. Onu əvvəlcə Böyük Bazar qəbiristanlığında – Sardaxılda dəfn etsələr də, vəsiyyətinə görə onun sümükləri çıxarılaraq Kərbəla ziyarətgahına göndərilir və orada dəfn olunur.

Lənkəran Şəhər Sovetinin qərarı ilə şəhərimizin keçmiş Lenin küçəsi hazırda Mir Mustafa xan küçəsi adlanır. Mən də çox xoşbəxtəm ki, ulu babam Mir Mustafa xanın adını daşıyan küçədə zəngin kitabxanamla birlikdə yaşayıram.





downloaded from KitabYurdu.org

## MÜƏLLİFDƏN

Ulu Azərbaycanımızın XVIII əsr tarixi məzmununa görə çox ziddiyyətli və təlatümlü bir dövrdür. Məhz buna görə də Vətənimizin XVIII əsr tarixini araşdırmaq tədqiqatçıdan ilk növbədə gərgin zəhmət, səriştəlik, mənbələrə bələd olmaq, arxiv sənədləri ilə dərindən tanış olmağı tələb edir. Bu dövrün tarixi ilə çar və habelə sovet dövründə yaşayan tarixçilər məşğul olmuş, bir sıra tədqiqat əsərlərini oxucuların ixtiyarına vermişlər. Xüsusi ilə qeyd etmək lazımdır ki, Azərbaycanın XVIII əsr tarixini dərindən tədqiq edən, həmin dövr üçün mütəxəssislər hazırlayan tarix elmləri doktoru, professor Həsi Behdud oğlu Abdullayevin xidməti əvəzsizdir. H.Abdullayev yazırdı: *«Arxiv sənədlərindən xəbərsiz olanlar üçün həmin tarixi bilmək, araşdırmaq qeyri-mümkündür»*[1].

XVIII əsrin birinci yarısından başlayaraq Azərbaycan – Səfəvilər dövlətində baş verən iqtisadi və siyasi böhran, əsrin 40-cı illərində xanlıqların yaranmasına səbəb oldu. Azərbaycanda formalaşan XVIII əsrə qədər xanlıqlar arasında Talış xanlığının özünəməxsus tarixi rolu olub. Onu da qeyd etmək yerinə düşər ki, Talışda xanlıq hakimiyyəti hələ XVI əsrdə mövcud olmuşdur[2]. Başqa diyarlarda belə hakimiyyət demək olar ki, yox idi.

Göründüyü kimi, Azərbaycanımızın bir parçası, əsrarəngiz təbiətə, tükənməz sərvətə malik olan Talış diya-

[1] Гаси Абдуллаев. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, 1965.

[2] И.П.Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в 16-нач. 19 вв. Л.1949.



rında xanlığın tarixi, ölkəmizin digər bölgələrindən daha əvvəllərə təsadüf edir. Bu diyarın adı Strabonun məlumatlarından tutmuş, bütün sənədlərdə Talış adlanır. Sovet dövründə bu diyar öz tarixi adı ilə adlandırılmış, kitabda elmi-tədqiqat xarakterli məqalələr və dünya ensiklopediyalarında Talış haqqında dəyərli faktlar verilmişdir.

Azərbaycan tarixinin həmin dövrünü tədqiq edən «həmkarlarım» «Talış xanlığı» məfhumuna göz yumaraq «Lənkəran xanlığı» adı ilə namizədlik dissertasiyası da yazmışlar[1]. Bəzi rəsmi kitablarda da belə ifadələr yer alır. Mən bütün tədqiqatçılara müraciət edərək soruşuram: elə bir tarixi sənəd varmı ki, orada «Talış xanlığı» əvəzinə «Lənkəran xanlığı» yazılsın?! Məni təəccübləndirən bir də odur ki, ixtisasca coğrafiyaşünas olan «tarixçi»nin Azərbaycan tarixçilərinin birgə əməyi ilə ərsəyə gəlmiş «Azərbaycan tarixi»nin giriş hissəsini təqdim edən yazısında Talış dağları əvəzinə Lənkəran dağları yazmasına nə ad vermək olar [2].

XVIII əsrin ikinci yarısında Azərbaycanda xanlıqların əmələ gəlməsi tarixi hadisə olsa da, Azərbaycan üçün uğur gətirmədi, mürəkkəb tarixi dönəmlərdə ortaya atılan «vahid dövlətdə birləşmək» ideyası reallaşmadı.

Bütün bunlara baxmayaraq xanlıqlar dövründə hakimiyyətə sahib olanlar arasında, el-obaya bağlı şəxslər də fəaliyyət göstərmişlər. Belələrindən qubalı Fətəli xan, gəncəli Cavad xan, naxçıvanlı Kəlbalı xan, şamaxılı Mustafa xan, şəkili Çələbi xan, talışlı Mir Mustafa xan olmuşlar. Həmin xanların həyat yolu barədə məlumatları bu gün obyektiv şəkildə yazaraq

[1] Bax: Azərbaycan tarixi. Bakı, 1960

[2] Yenə orada. Bakı, 1960



downloaded from KitabYurdu.org

gələcək nəsillərə çatdırmaq lazımdır. Müstəqilliyimizin indiki məqamı buna imkan yaradır və biz tarixçilərdən bu xüsusda tam obyektiv olmağı tələb edir.

Talış xanı Mir Mustafa xan diyarına vurğun, namuslu, qeyrətli xan kimi tarixə düşüb. Nəsil şəcərəsi Səfəvilərə gedib çıxır. O, babası Seyid Mir Abbas, atası Qara xanda olan keyfiyyətləri həmişə qoruyub saxlayıb. Diyarda abadlıq işlərinə, insanların təhsil almasına həmişə qayğı ilə yanaşıb. Mir Mustafa xan reallığı düzgün qiymətləndirərək güclü qonşu dövlət olan və buna görə də yeni torpaqlar tutmaq istəyini daim reallaşdırmağa çalışan İrana və onun hökmdarlarına heç vaxt inanmamış, ehtiyatını əldən verməmiş, lazım gələndə sərt mövqe nümayiş etdirmişdir. Bu mübarizədə haqlı olaraq daha güclü imperiya olan Rusiyaya meyli olmuş və Talış xanlığının mənafeyi naminə incə siyasi gedişlər edərək ondan yararlanmağa çalışmışdır. Bəzi «Tədqiqatçılar» isə demək olar ki, bütün dövlətlərin tarixində olmuş belə müttəfiq axtarışını əldə dəstəvüz edərək Mir Mustafa xan kimi şəxsiyyətə qarşı ədalətsiz hücumlar etmişlər.

Bəs nə etməli idi Mir Mustafa xan? Təcrid olunmuş vəziyyətdə qala bilərdimi? Mir Mustafa xan Rusiya ilə dostluq əlaqələrinin yaradılmasına məcbur idi. Həm də bu o demək deyildi ki, Mir Mustafa xan Rusiyanın himayəsində olmaq üçün cəhdlər edib. Əslində heç bir tarixi sənəddə belə cəhdlərin mövcudluğu öz əksini tapmır. Axı, tarixdə şəxsiyyət kimi tanınan Mir Mustafa xandan bunu gözləmək də olmazdı.

Uzun illərdən bəri Talış xanlığı tarixinin araşdırıcısı kimi daxili aləmim məni məcbur etdi ki, Mir Mustafa xan haqqında ayrıca bir kitabı ərsəyə gətirim və buna



nə dərəcədə nail olduğunu çox hörmətli oxucularım qiymətləndirəcəklər. Həmin vətənpərvər insanlara dərin minnətdarlığımı bildirirəm.

Şübhəsiz ki, kitab qüsurlardan da xali deyildir. Oxucuların obyektiv irad və qeydlərinə görə əvvəlcədən minnətdarlığımı bildirirəm.



downloaded from KitabYurdu.org

## MİR MUSTAFA XANIN ƏSİL - NƏSƏBİ

Mir Mustafa xanın şəcərə ilə böyük Azərbaycan-Səfəvilər nəslindən olması barədə ilk mənbələrdə istənilən qədər sənədlər vardır. Ulu babası Seyid Məhəmməd Şeyx Zahidin qohumu olmuş, Şeyx Zahiddən dini təhsil almış, özünün yüksək zəkası, habelə şəxsi nümunəsi ilə Səfəvi şeyxləri arasında tanınmışdı. Sənədlərdə belə bir məqam da vurğulanır ki, Şeyx Məhəmməd fars, ərəb, türk, hətta yunan dillərini az bir zamanda mənimsəmişdi. O, həmin dillərlə yanaşı qədim azəri dilində də danışır, bu da onun hansı mənşəyə malik olduğundan xəbər verirdi. Şeyx Zahidin təbliğ etdiyi təriqətin tərəfdarı kimi Məhəmməd Peyğəmbərə böyük məhəbbət, onun nəslinə böyük inam bəsləmişdir. Bir qayda olaraq, qəlbində Allaha böyük inam daha dərin kök salmışdı. Şiə təbliğatçısı kimi Ərdəbil diyarında tanınırdı. O, Şeyx Zahidin tövsiyəsi ilə Azərbaycanın bir sıra diyarlarında şiəliyi təbliğ etmişdir. Peyğəmbər nəslindən olduğundan onun moizələri xüsusi ehtiramla dinlənilir, hər yerdə ona dərin hörmət edilirdi. Sənədlərdən aydın olur ki, onun ən çox olduğu yer Ərdəbildən başlayaraq, qədim azəri diyarı Talış daha çox diqqəti cəlb edir. Yerli əhali onun moizələrinə diqqətlə əməl etmişdi. Seyid Məhəmməddən sonra onun irsini davam etdirən Seyid Mir Abbas da Şeyx Zahiddən, Şeyx Cüneyiddən dərin savad almış və Şeyx Heydərin vaxtında «Qurani-Kərimi»in bilicisi kimi tanınmışdı. Atası kimi Talış diyarında Allaha inamı, Məhəmməd peyğəmbərin ideyalarını, Həzrət Əliyə məhəbbəti təbliğ etmişdir. Az bir zamanda diyarda böyük dini xadim – müctəid səviyyəsində insanların inamını qazana bilmişdir.



Seyid Mir Abbasla görüşənlər, onun kəlamlarını dinləyənlər öz xatirələrində qiymətli qeydlər yadigar qoymuşlar. Həmin qeydlər Seyid Mir Abbas bəy haqqında dolğun fikir söyləməyə imkan yaradır. Seyid Mir Abbas Talışdakı ilk fəaliyyətinə Astaradan başlayıb. Bu da təsadüfi deyildi. Bəllidir ki, Astara Ərdəbilə daha yaxın bir məkan idi. Burada əhalinin müəyyən bir hissəsi şiəliyə yox, sünniliyə meylli olmuşdur. Seyid Mir Abbas həmin çətinlikləri də aradan qaldırmış, şiəliyə meylli insanların sayını günü -gündən artırmışdır. Gilan, Rəşt, Ənzəlidən başlayaraq Balaruda qədər onun ziyarətinə insanlar gəlir, moizələrini dinləyirdilər.

Seyid Mir Abbas həm də diplomatiyadan xəbərdar olan bir şəxs kimi tanınırdı. Lakin bəzi sənədlərdə Seyid Mir Abbasın şəxsiyyətinə dərindən varmadan uydurmalar da yazılmışdır. Məsələn, Mirzə Əhməd Mirzə Xudaverdi oğlu «Əxbarnamə»də yazır ki, Seyid Mir Abbas, Ərdəbildəki aclıqdan Talışa gəlir, burada qalır. Hətta ehtiyatsızlıq edərək belə mülahizə irəli sürür ki, Talışda hakimiyyətdə olan İbrahimlə görüşmüş, bacısını ona ərə verməklə imkana malik olmuşdur».[1]

Əlbəttə, «Əxbarnamə»dəki həmin fikirlə qətiyyən razılaşmaq olmaz, Mirzə Əhməd Mirzə Xüdaverdi oğlunun «Əxbarnamə»sindəki faktların elmi əsası yoxdur. Onun Seyid Mir Abbas haqqındakı yuxarıda qeyd etdiyimiz fikirləri şübhəsiz ki, uydurmadır. Peyğəmbər nəslindən olan, yüksək dini təhsilli, Səfəvi dövlətinin diyardakı nümayəndəsi olan Seyid Mir Abbas necə ola bilər ki, əyyaşlıqla məşğul olan, gününü şərab içməklə keçirən bir insanla yaxınlıq etsin?!

[1] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. «Əxbarnamə».



downloaded from KitabYurdu.org

Səidəli Kazımbəy oğlu «Səidiyyə» kitabında Seyid Mir Abbası xəlifə səviyyəli şəxs kimi təqdim edir. Müəllif yazır: *«Mir Abbas xan nəsəbi iyirmi səkkiz arxadan ibarət olan şəhid Zeyid ibn Əli, ibn Hüseyin, ibn Əli, ibn Əbu-Talıb əleyhüssalama çatan bir xəlifədir. Onun kəraməti əcdadlarından biri Xəlifə Əli əleyhüsəlamdandır. Hicrətin 1064-ci ilinin rəbiəssani ayında cənnətməkan Şah Abbas Səfəvi öz fərmanı ilə onu şərəfə, rütbəyə çatdırmışdır».*[1]

Seyidəli Kazımbəy oğlu daha irəliyə gedərək, Seyid Mir Abbasın insanlar arasındakı xidmətini, vilayətin xəlifəsi səviyyəsində olmasını böyük məhəbbətlə qeyd edir. Seyid Mir Abbas Talışda fəaliyyəti dövründə subay olmuşdur. Burada Boradigahlı Əsəd bəy ibn Hüseyn bəyin qızı Ahu xanımla evlənmişdi. Əsəd bəy qızı Ahu xanımı Seyid Abbasa ərə verməklə, ixtiyarındakı bütün əmlakı da ona vermişdi. Ahu xanımdan, Talışın görkəmli xanı, böyük siyasət sahibi Cəmaləddin Mirzə (Qara xan) anadan olmuşdur. Qara xanla yanaşı Seyid Mir Abbasın Mir Təhmasib xan, Mir Məhəmməd bəy adında oğulları olub. Seyid Mir Abbasın Talışda hörmətinə qısqanclıqla yanaşan, Talışın Astara hakimi Musa xan nəyin hesabına olursa-olsun Seyid Mir Abbası hörmətdən salmaq məqsədi ilə siyasətə əl atır, lakin həmin hücumların nəticəsi olmur. Çünki onu diyarın bütün insanları sevir. Hətta Musa xandan da yüksək qiymətləndirirdilər. Astara mahalının hakimi Musa xan olsa da, əhali, Musa xanı tanımır, Seyid Mir Abbası Astaranın hakimi sayırdı. Seyid Mir Abbas Lənkəran hakimi Əmir Aqis, Məhəmməd Hüseyn xan

[1] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. «Əxbarnamə».



tərəfindən də qısqanclıqla qarşılanırdısa da, onun böyük elmi qabiliyyəti həmin hücumları asanlıqla dəf etməyə imkan verirdi.

O, Səfəvilər tərəfindən də mühafizə olunurdu. Sənədlərdə göstərilir ki, Seyid Mir Abbas Səfəvi dövlətində hakimiyyətə gələn son şahların bacarıqsızlığından xəbərdar idi. Bilirdi ki, artıq Səfəvilər dövləti böhran vəziyyətindədir. Şahlar böhranın qarşısını almaq imkanından məhrumdurlar. Artıq bütün Azərbaycanı bürüyən siyasi böhran başlanmışdı. Belə ağır bir vəziyyətdə Astarada yaşayan Seyid Mir Abbas daha çevik hərəkət etməyə başladı. Talışı hərc-mərclikdən xilas etmək üçün gizli yollarla XVIII əsrin birinci yarısında güclü dövlət olan Rusiya ilə münasibətlər yaratmaq üçün Rusiyanın Talışdakı diplomatları vasitəsi ilə saziş bağlayır. Seyid Mir Abbası bu addımı atmağa vadar edən nə idi? Artıq Rusiya Xəzərboyu əyalətlərə sahib idi. Həmin bölgələrdə hakimiyyət dəyişiklikləri aparır, istədiyi adamları hakimiyyətə gətirir, eyni zamanda da həmin bölgələrdə hərbi komendantlıq yaradırdı. Diyarda vahid hakimiyyətin olmamasından Rusiya məharətlə istifadə etmişdi. Bəllidir ki, Talışın Qızılagac mahalı sultanlıq, Lənkəran və Astara isə xanlıqlar adlanırdı.[1] Səfəvi dövləti Rusiyaya müqavimət göstərmək iqtidarında deyildi və eləcə də Musa xanın Talışı Rusiyaya tabe etmək arzusunda olmasından xəbərdar olan Seyid Mir Abbas daha çevik hərəkət edərək, Astarada və Talışın digər regionlarındakı rus məmurları ilə görüşür. Talışın işğal olunmasının qarşısını almaq məqsədi ilə diplomatik manevrlərdən istifadə edərək o,

[1] Qasi Abdullayev. Göstərilən əsəri, səh. 121.



downloaded from KitabYurdu.org

hətta rus məmurları vasitəsi ilə Bakıdakı rus hərbi qərargah başçılarına məktublar da yazırdı. O, I Pyotrun Bakıdakı sərkərdəsi Matyuşkinə məktub göndərib dostluq əlaqəsi yaratmaq arzusunu bildirir .[1]

Bakı komendantı Seyid Mir Abbasın məktubuna razılığını bildirmiş, bu barədə Bakı komendantı Baratinski yazırdı: *«Seyid Mir Abbas Talışda Rusiyanın mövqeyini artırmaq üçün silah tələb edir, əvəzində isə Talışdan 3000 nəfəri rus qoşunlarında xidmətə göndərməyi vəd edir».*[2] Seyid Mir Abbas bəyin bu səpgidəki müraciətləri Rusiyanı tam təmin edirdi. Rusiya belə imkandan faydalanmaya bilməzdi. Arxivdə mühafizə olunan sənədlərin birində belə bir məqam da diqqəti cəlb edir. Seyid Mir Abbasın müraciətinə Rusiya tərəfi bir o qədər də inanmır. Bunu hiss edən Seyid Mir Abbas Rusiyanı inandırmaq məqsədi ilə oğlunu əmanət göndərməyə belə razılıq verir. Sənəddə oxuyuruq: *«Əgər komendant Talışa 1000 nəfərdən ibarət qoşun göndərmiş olarsa, eyni zamanda hərbi hissənin tələbatını ödəmək məqsədi ilə geyimlərini göndərməlidir»*[3]. Həmin müraciət rus məmurları tərəfindən böyük sevinclə qarşılanır. Bu münasibətlə Seyid Mir Abbas bəyə yeni-yeni vədlər verilir. Artıq Talışda rəsmi hakim kimi fəaliyyətdə olan Musa xana inam azalır. El-obada dərindən ziddiyyətlər yaranır. Talış camaatı da Musa xana yox, daha çox Seyid Abbasa inanır. Bəs, din xadimi kimi diyarda böyük hörmətə malik olan Seyid Mir Abbası bu işə vadar edən nə idi? Əlbəttə, birmənalı şəkildə

[1] İ.P.Petruşevski. Göstərilən əsəri. səh. 274
[2] Firudin Əsədov. Talış xanlığı. Bakı, 1998 – ci il, səh. 12.
[3] Rusiyanın Xarici Siyasət Arxivi. Moskva. siyahı 771, iş. 6, vərəq 290.



demək olar ki, qeyrət, torpağa bağlılığı onu belə diplomatik gedişləri etməyə vadar edirdi.

Artıq Səfəvi dövləti idarəolunmaz vəziyyətdə idi. XYIII əsrin 30-cu illərində Səfəvi taxtına sahib olan Nadir şah İranı dağıntılardan xilas etdi, bu da Səfəvilər üçün uğür demək deyildi. Burada Nadirqulunun – Nadir şahın böyük istək və arzuları dayanırdı. Nadirin Səfəvi dövlətinin daxilində mövqe seçməsi onun istəklərinə tam cavab verirdi. Nahayət, Nadirqulu 1736-cı ildə Muğanda ikən 8 aylıq Şah Abbasın vəfatını eşidib fürsəti əldən vermədən orada böyük toplantı – qurultay çağırdı və özünü şah elan etdi. Beləliklə, Səfəvilər hakimiyyətinə son qoyuldu. İran və Azərbaycanda Əfşarlar hakimiyyətə gəldi. Nadirin şahlıq titulunun elan olunması mərasiminə hər yerdən iri feodallar gəlir. Təkcə Qarabağın Cavanşir tayfası və Gəncəbasarın Ziyadoğulları Səfəvilərin şahlığa gəlməsi arzusunda olduqlarından həmin mərasimdə iştirak etmirlər. Kin və qısasçılıqla xəmiri yoğrulmuş Nadir şah, onun şahlığını tanımayan Qarabağın Cavanşir nəslinə, Gəncəbasarlılar Ziyadoğlulara qarşı cəza fikirləşir. O, Qarabağa və Gəncəyə yürüşündə həmin fikrini həyata keçirir. Belə ki, Gəncə və Qarabağ əhalisindən nəzərdə tutulan vergilərin miqdarını bir daha artırır, əhaliyə əzablar verməkdən çəkinmir. Həmin talanlarla kifayətlənməyən Nadir şah, Ziyadoğlu adı ilə məşhur olan Gəncə xanları, habelə Kəbirli və Cavanşir tayfalarının başçılarını ailələri ilə birlikdə Xorasana sürgün etdirir. Qazax və Borçalını isə Kartli hakiminin tabeliyinə verir.

Nadir şah Muğandakı qurultayda Azərbaycanın tanınmış feodallarını qəbul edir. Həmin toplantıda Qarabağdan olan hiyləgər ermənilər – erməni başbilənlə-



downloaded from KitabYurdu.org

rindən Şahnəzər, Yegan və b. iştirak edirdilər. Onlar Nadir şahın qərargahına yaxınlaşarkən, sürünə- sürünə gəlmiş, özləri ilə hədiyyə kimi «axçilərini» gətirərək Nadirin ixtiyarına vermiş, bunun müqabilində isə Nadir şah Azərbaycanın gələcəyi üçün ən böyük bəlanı – onlara məliklik hüququnu verməklə Azərbaycan üçün fəlakətin bünövrəsini qoymuş oldu. «Tarixi – Nadir» kitabında yazıldığı kimi, həmin toplantıda Talışın tanınmış adamı müdrik Seyid Mir Abbas iştirak edirdi. Hətta Nadirin hərbi hissəsində xidmət etmək üçün oğlu Qara xanı və 300 nəfərə kimi döyüşçünü gətirmişdi. Seyid Mir Abbas bu yolla Nadirin Talışda talançılığının qarşısını ala bilmişdi. «Tarixi – Nadir»də yazıldığı kimi, ermənilər, şahdan belə bir xahiş də edirlər ki, Talışda da onların yaşamalarına imkan yaratsın. Onda Seyid Mir Abbas cəsarətlə şaha deyir ki, ermənilərin Talışda yaşaması mümkün deyildir. Çünki diyarın hər hissəsində seyidlərin, peyğəmbər nəslindən olanların qəbirləri – ocaqları var. Onda Nadir şah münşisindən «belədirmi?» - deyə soruşur. Münşi Seyid Mir Abbasın fikrini təsdiq edir və Nadir şah ermənilərə «Talış diyarında Sizin yaşamağınız qeyri-mümkündür» cavabını verir.

Seyid Mir Abbasın Nadir şahın qoşununda xidmət etmək üçün gətirdiyi döyüşçülər arasında oğlu Qara xandan başqa bacısı oğlu Mirzə bəy də var idi. Seyid Mir Abbas belə bir addımı atmağa məcbur idi. Musa xan başda olmaqla onun tərəfdarları həmişə nə yolla olursa-olsun Seyid Mir Abbası sıradan çıxarmaq üçün fürsət axtarırdılar, lakin xalqa daha yaxın olan Seyid Mir Abbas həmin fitnələrdən xilas ola bilirdi. Artıq Seyid Mir Abbasın oğlu Qara xan hərbi yürüşlərdə



Nadirin diqqətini cəlb etmişdi. Bundan başqa, Seyid Mir Abbasın Talış diyarındakı dərin hörmətə malik olmasından da şah xəbərdar idi və Seyidə rəğbəti günü – gündən artırdı.

Nadir şah Talış diyarında hakimiyyətdə olan Musa xana qarşı qısqanclığını büruzə verirdi. Musa xan haqqında Nadir şah cəza fikirləşmiş, hətta Musa xanı həbs etdirmişdi.[1] Yaranan gərginlikdən istifadə edən Seyid Mir Abbas Nadirin yanında nüfuzunu artırmaq üçün onun ordusunda xidmət edənlərə yardımı bir an belə unutmur. Bütün bunlar onun Nadir şah yanında hörmət qazanmasına imkan yaradırdı. Digər tərəfdən də Seyid Mir Abbasın oğlunun döyüşlərdə şücaəti Nadirə xoş gəlmiş, belə olduqda Nadir şah fərmanı ilə Talışda hakimiyyətdə olan Musa xanın tərəfdarlarını vəzifədən uzaqlaşdırır və diyardakı hakimiyyəti Seyid Mir Abbasa tapşırır. Beləliklə də Seyid Mir Abbas Talış mahalının mütləq hakimi təyin olunur.

Tarixi sənədlərdə Seyid Mir Abbas haqqında yazılır: «Seyid Mir Abbas uzaqgörən, ağıllı adam idi. O, siyasətlə Nadir şahın etimadını qazandı. Talış hakimi oldu».[2] Seyid Abbasın Talışda hakimiyyətə gəlməsi Musa xanın yaxınları tərəfindən müqavimətə rast gəlir. Onlar hər yerdə qarma-qarışıqlıq yaratmağa başlayırlar. Yaranmış vəziyyətdən qorxmayan Seyid Mir Abbas bəy özünəməxsus siyasəti ilə onların qarşısını almağa başlayır. Həmin qüvvələr gilanlı Hidayət xanla əlaqə yaratmaqla Seyid Mir Abbasa qarşı birləşir. Bütün bu kimi fitnələr, təzyiqlər Seyid Mir Abbası heç

---

[1] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Göstərilən əsəri, səh. 30.
[2] Firudin Əsədov. Talış xanlığı, səh. 14.



downloaded from KitabYurdu.org

də qorxutmur, onlara layiqli cavab verməklə hakimiyyətini davam etdirir.

Seyid Mir Abbasda dərin bilik, müdriklik keyfiyyətləri hadisələrdən düzgün nəticə çıxarmağa imkan yaradırdı. O, Talışda ikən bütün çətin sınaqlardan məharətlə çıxmış püxtələşmişdi. Hakimiyyəti ələ keçirən kimi ciddi tədbirlərə əl atır. Yerlərə səfərlər edir, kimsəsizlərə yardım edir, eyni zamanda da onların dini təhsil almasına qayğı göstərir. Seyid Mir Abbasın iqamətgahı Astara idi. Burada məscidlərin tikintisinə xüsusi diqqət verir, nəinki Astarada, Rəştdən bəri hakimiyyətində olan Talış – Dolabi, Asalim, Şənbərmin Qorqanrud, Masalda da həmin işlərin görülməsinə diqqət yetirir. Seyid Mir Abbasın həmin yerlərdə quruculuq işlərinə, kimsəsizlərə köməklik edilməsinə xüsusi diqqət göstərməsinin ən mühüm səbəbi ondan ibarət idi ki, həmin bölgədə Musa xanın tərəfdarları daha çox idi və onları zərərsizləşdirib öz tərəfinə çəkmək üçün müxtəlif addımları atırdı. Seyid Mir Abbas böyük məmuniyyətlə həmin bölgədəki iri feodallarla qohumluq əlaqəsinə girir. Xüsusi ilə xanlığın ən böyük bölgəsi Ulufun nüfuzlu adamları ilə qohum olmağa çalışırdı və onları bu yolla tərəfinə çəkir. O, cəsarətli, ağıllı adamları axtarıb tapırdı və onlarla yumşaq münasibət yaradırdı.[1] Bu məqsədə Dəştvənd mahalının kəndxudası Yarməhəmmədlə qohum olmağı məqsədəuyğun saydı. El arasındakı nüfuzunu nəzərə alaraq qızını Yarməhəmmədə ərə verdi. Seyid Mir Abbas Astaradakı iqamətgahından bütün Talış diyarı ilə əlaqə saxlayırdı.

[1] Mirzə Əhməd Mirxə Xudaverdi oğlu. Göstərilən əsər, səh. 34



Talışda ona olan böyük hörmət həmin əlaqələrə imkanlar yaradırdı.

Seyid Mir Abbas Talışda tam hakimiyyətdə olmasa da, (çünki hələ Nadir şahın qorxusu hiss olunurdu) diyarda təhsilə xüsusi diqqət verirdi. O, təcrübəsindən bilirdi ki, diyarın idarə olunması asan deyildir, hakimiyyətin qorunub saxlanılması üçün onun iqtisadiyyatı güclü olmalıdır. Buna görə də əkinçilik, maldarlığın inkişafına hər yerdə şərait yaratmış, eyni zamanda da başqa dövlətlərlə də ticarət əlaqələri qurmuşdu. Seyid Mir Abbas Nadirin etimadını qazanmaq məqsədi ilə xəzinə üçün vergilərin vaxtı – vaxtında toplanmasına da fikir verirdi. O bilirdi ki, tamahkar Nadir şahın bu yolla da səsini kəsmək mümkündür.

Seyid Mir Abbas diyarda ordu quruculuğuna da diqqət vermişdi. Diyarda müstəqil xanlıq üçün şərait hazırlamışdı. Onun ən mühüm tədbirlərindən biri də Talışın ərazisini müəyyən etmək idi. Həmin ərazini rəsmiləşdirmişdi. Akademik S.Qmelin Talış diyarında olarkən, Seyid Mir Abbasla görüşmüş, onunla söhbətindən məmnun qalmışdı. Qmelin yazır ki, onun (Seyid Abbasın) hakimiyyəti zamanı ərazisi böyük idi. Belə ki, Talış dağlarından başlayaraq, Muğana kimi böyük ərazisini əhatə edirdi.[1]

Talışda xalq Seyid Mir Abbasın hakimiyyətindən çox razı idi. Mütərəqqi hakim kimi hörməti günü – gündən artırdı. Azərbaycanın digər hakim dairələri də ona böyük rəğbət bəsləyirdilər. Nadir şah isə heç bir vəchlə Seyid Mir Abbasın belə hörmət qazanması ilə

[1] С.Гмелин. Путешествие по России для исследования всех трех царств природы. 3 hissə SPB 1780, səh. 10.



downloaded from KitabYurdu.org

razı ola bilməzdi. Onu hakimiyyətdən uzaqlaşdırmaq üçün bəhanə axtarırdı. Lakin 1747-ci il iyun ayının 20-də Nadir şaha edilən sui – qəsd onun arzusunu ürəyində qoydu. Nadir şahın ölümü Azərbaycanda xanlıq hakimiyyətinin yaranmasına imkan yaratdı. Talış xanığı müstəqil xanlıq kimi fəaliyyət göstərməyə başladı. Burada bir cəhəti yadda saxlamaq lazımdır ki, Talış xanlığının Azərbaycanın digər xanlıqlarından fərqi ondan ibarət idi ki, Nadir şah hakimiyyətə gəlməzdən qabaq burada xanlıq mövcud olmuşdu. Yəni müstəqil olmasa da, xanlıq var idi. Hakimlər tərəfindən irsi idarə olunan xanlıq «ölkə» adlanırdı.[1] Seyid Mir Abbas isə xanlıq üsul - idarəsinin əsasını qoydu. Sarayda ən nüfuzlu adamları cəmləşdirdi. Az sonra hərbi – qüvvə – ordu yarada bildi. Beləliklə də, Azərbaycanda əmələ gələn digər xanlıqlar da onunla hesablaşmağa, əlaqələr yaratmağa başlamışdılar.

Seyid Mir Abbas daim xalqın arasında olur, onların istək və arzularını təmin etməyə xüsusi diqqət verirdi. Nadir şaha qəsddən (1747-ci il) sonra oğlu Qara xan ətrafındakı döyüşçüləri ilə birlikdə Talışa qayıdır, xanlığın idarə olunmasında atasına yaxından köməklik edir. Bir cəhəti yadda saxlamaq lazımdır ki, Seyid Mir Abbas Talışda xanlığın quruculuq işləri ilə məşğul olduğu vaxtda da Səvəfi şeyxlərinin ziyarətindən qalmır, vaxtaşırı bütün çətinliklərə baxmayaraq həmin səfərlərə gedirdi. O, vəsiyyət etmişdi ki, vəfat etdikdə, cənazəsi Ərdəbilə aparılsın, şeyx Zahidin məqbərəsi yaxınlığında torpağa tapşırılsın.

[1] İ.P.Petruşevski. Göstərilən əsəri, səh. 139.



1749-cu ildə Seyid Mir Abbas vəfat edir, vəsiyyətinə əməl edilərək, cənazəsi Ərdəbilə aparılmış, şeyx Zahidin məqbərəsi yaxınlığında dəfn olunmuşdur.

Atasının vəfatından sonra Qara xan Talış xanı oldu. Seyid Mir Abbasın vəfatı Talış diyarında böyük kədərlə qarşılandı. Demək olar ki, hər yerdən Seyid Mir Abbasla vidalaşmaq üçün insan axını ara verməmiş, onun diyardakı böyük hörməti və tanınmış seyid-peyğəmbər övladı olduğundan dəfn mərasimində iştirakı özləri üçün müqəddəs vəzifə saymışlar. Vida mərasimində Ərdəbildən Səfəvi nəslindən olan ülәmalar da var idi. Həmin mərasim Ərdəbildə də davam etmişdi. Seyid Mir Abbasın vəfatı, onun oğlu Qara xan üçün daha çox ağır olsa da, iradəsini toplamış, atasının ruhu qarşısında borcunu şərəflə yerinə yetirmişdir.

Qeyd etmək lazımdır ki, Qara xan artıq püxtələşmişdi, çünki hakimiyyəti idarə etmək dərsini atasından mənimsəmişdi. Digər tərəfdən Nadir şahın qoşununda xidməti və hərbi məktəb keçməsi ona çətinliklərə sinə gərməyi öyrətmişdi. Belə imkanlara sahib olan Qara xan hakimiyyəti idarə etməkdə atasından geri qalmırdı, bir çox hallarda isə ondan da irəli gedirdi. Onu da qeyd etmək lazımdır ki, Talışın daxilində və xaricdən düşmən qüvvələrin fəaliyyəti səngiməmiş, əksinə Seyid Mir Abbasın vəfatından sonra daha da fəallaşmışdı. Qara xan mövcud vəziyyəti düzgün qiymətləndirmiş, ilk vaxtlarda əks qüvvələr özlərini sınamaq məqsədi ilə, daha doğrusu, Qara xana qorxu gəlmək məqsədi ilə Talış ərazisinə hücumlar edir, daxili qüvvələr də onlara dəstək verirdilər. Həmin qüvvələr Qara xanın daha təcrübəli olması barədə məlumata malik deyildilər və xan maneələri asanlıqla aradan qal-



downloaded from KitabYurdu.org

dırmağa nail olmuşdu. Daha çox təhlükə vaxtı ilə Talışda hakim olan Musa xan tərəfdarlarından gözlənilirdi. Qara xan həmin həmlələri asanlıqla dəf etməklə digər təhlükə mənbəyini – Gilanı da unutmadı. Gilan xanı bilavasitə İran şahlığının diktəsi ilə hərəkət edir, ilk növbədə Talışa sahib olmaq arzusu ilə yaşayırdı. İranın şahlıq hakimiyyəti Gilan xanını Talışa istiqamətləndirməklə böyük strateji mövqeyə, sərvətə malik olan Talışa sahiblik arzusunda idi. Bu gizli niyyətdən də Qara xanın xəbəri var idi, ona görə gözləmə siyasəti yeritmir, əksinə, ciddi hazırlıq görür, ilk növbədə hərbi qüvvələrin- ordusunun yaradılmasına diqqət verirdi. Hərbi qüvvələrin yaradılmasına isə döyüşlərdə iştirak etmiş təcrübəli sərkərdə kimi şəxsən özü rəhbərlik edirdi. Qara xan bilirdi ki, hakimiyyəti qoruyub saxlamaq üçün ən əvvəl sabitlik yaratmaq, iqtisadiyyatı normal vəziyyətə gətirmək lazımdır. Düşmən qüvvələr isə bundan xəbərdar olan kimi ona maneə olmaqdan ötrü tədbirlər düşünməyə başlayırlar.

Qara xan həm də ciddi təhlillər aparmağı bacaran diplomat olmuşdur. O, mübahisəli məsələləri ilk növbədə sülhlə başa çatdırmağa çalışır, müharibə və qan tökmənin qəti əleyhinə idi.

Xan əhalinin rəğbətini qazanmaq məqsədi ilə köhnə, irsi torpaq sahələrinin miqdarını xeyli azaltdı. Torpaqsız insanlara torpaq payladı. Bir çox hallarda ticarətə qoyulan məhdudiyyətləri ləğv etdi. Ticarət əlaqələrinin bərpası qonşu ölkələrdən Talışa tacirlərin gəlməsi üçün imkanlar yaratdı.

Qara xan hakimiyyətə maneə olan iri torpaq sahiblərinə zəruri məqamlarda cəza verməkdən belə çəkinmirdi. Bir qayda olaraq həmin zümrədəkilər həmişə kəndlilərə yuxarıdan baxmışlar, xan isə onların əl - qol açmasına imkan vermirdi.



Qara xan ilk baxışdan sadə görünsə də sərt addımlardan da çəkinmirdi. Müqavimət göstərənləri, xanlıq hakimiyyətinin qüvvətlənməsinə maneə olmaq üçün dedi – qodu yayanları cəzalandırırdı və həmin qüvvələr ondan ehtiyat edərək «qılınclarını qınına qoyub» xanla hesablaşmalı olurdular. Daha ciddi müqavimət göstərənləri zindana salıb, torpaqlarını müsadirə edərək, torpaqsızlara paylayırdı.

Qara xan uzaqgörənlik edərək, Talış xanlığının hakimiyyətini irsi elan etmiş, bu barədə imzaladığı Fərmanı diyarın hər yerinə çatdırmışdı. Bu tədbir bütün Azərbaycan xanlıqlarında həyata keçirilmişdi. Bunun da mənası vardır. Əksər xanlıqlar, yerin adı ilə özlərini tanıtmaq üçün belə tədbirlərdən geniş istifadə edirdilər. Bu barədə akademik M.O.Kosvenin yazdığı kimi *«XYIII əsrdə meydana gələn xanlar, həmin yerə bağlılığını bir daha rəsmiləşdirdilər».*[1] Başqa cür ola da bilməzdi, xanın adı, gələcək nəsli diyarla bağlanmalı idi. Qara xan bilirdi ki, əsli-nəcabəti Ərdəbildəndir.[2] Ancaq bütün məktub və fərmanlarını Qara xan Talışlı adı ilə imzalayırdı. Qara xan hələ atası tərəfindən müəyyən edilmiş ərazini bir daha qaydaya salmaq məqsədi ilə xanlığın ərazisini mahallara bölmüş, həmin mahallara isə mahal naibləri başçılıq edirdilər və onlar da birbaşa xana tabe idilər.

Qara xanın bilavasitə sərəncamı ilə Talış xanlığında aşağıdakı mahallar yaradılmışdır: Astara, Çayiçi Lənkəran, Zuvand, Uluf, Dereq, Dəştivənd, Muğan,

[1] М.О.Косвен. Етнография истории Кавказа. М.1961. стр.336.
[2] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Göstərilən əsəri, səh. 62.



downloaded from KitabYurdu.org

Ucarud. Həmin mahalların əhatə etdiyi əraziyə aydınlıq gətirmək üçün Səidəli Kazımbəy oğlunun «Səidiyyə» kitabına istinad edərək, bu ərazilər barədə məlumat vermək məqsədəmüvafiq hesab olunar: **1 və 2. Əsalim və Qorqanqud** – hər ikisi bütövlükdə İran dövlətinin tabeliyindədir. Buranın xalqları İslam dininin iki firqəsinə inanırlar. Bir qismi şiə və bir qismi də sünni məzhəbindədirlər… Sərhədləri cənubdan Rəşt və Xalxal nahiyələrinə bitişikdir. Şərq tərəfdən Xəzər dənizi ilə qərb tərəfdən Xalxal ilə həmsərhəddir. Şimal tərəfdən Qorqanqudun sərhədləri Astara mahalında bitirdi. **3.Vilgic mahalı** həmin vilayətdir ki, «Gülüstan» sülhündən sonra Qızılbaş dövlətinə aid olmuşdur… Bu nahiyə Kutvalanş yaxınlığından iki hissəyə bölünür. Həmin hissələrin biri Xalxal sərhədinə, Bağru dağına və Ərdəbilə yaxındır. Başqa tərəfi səkkiz fərzənd sahəsi olan Ərşəq torpağına bitişikdir. **4. Astara mahalı**. Qədim sərhədləri uzununa Hilevənd kəndindən Buta kəndinə qədər uzanan, eni isə Xəzər dənizi sahillərindən tutmuş Vilgic mahalının sərhədinə qədər davam edir. **5.Çayiçı Lənkəran mahalı**, 22 kənddən ibarət olan Lənkəran şəhərinin ətrafında yerləşən Çayiçi Lənkəran adlanan bu mahalın əsas məhsulları düyü və ipəkdir. **6. Zuvand mahalı**. Zuvand mahalı kifayət qədər daşlıqdır, torpağı daşlıqdır. Buğda və digər növ dənli bitkilər orta səviyyədə becərilir. Adamları zirək və zəhmətkeşdilər. **7. Uluf mahalı.** Uluf mahalı dağların arasında yerləşir və on iki parça məkandan ibarətdir. Bu nahiyənin sərhəd hüdudları Lənkəran şəhərinin qədim sərhədləri olan məşhur Balkar çayı və yaxud Ləkər körpüsündən, Bədəlan kəndinə qədər uzanır, eni isə Xəzər dənizindən Dereq mahalına qədərdir. **8. Dereq



mahalı**. Dereq – mahalı dağlıqdır, əsas məhsulu buğdadır. Başqa dənli bitkilər də burada bitir. Camaatı silahdan istifadə etməkdə məharətli, döyüşkən, qeyrətli və cəsarətlidir. **9.Dəştivənd mahalı**. Dəştivənd mahalına bəzən Ərkivan da deyirlər. Qeyrətli, döyüşdə çox qaynar və cəsurdurlar. Burada ipək məhsulları, boyaq bitkisi Marena da yaxşı inkişaf edir. **10. Muğan mahalı** qədim zamanlarda viran olmuş, bu mahal sonralar abadlaşmış və xanlıq ərazisinə qatılmışdı. **11. Ucarud mahalı** beş hissədən ibarətdir. Birincisi Adınabazar, ikincisi Mirankuh (yəni Qarışqalar dağı), üçüncüsü Alar, dördüncüsü Sepidəşt (yəni Ağçöl), beşincisi Dilaqar tayfası yaşayan məkan. Bu bölümlərin hər biri çoxlu kəndlərdən ibarətdir. Əhalisi şiədir.[1]

Qeyd etmək lazımdır ki, Mir Mustafa xan Talışınskinin hakimiyyəti dövründə həmin mahallar bir daha nəzərdən keçirilmiş, bəziləri biri – birinə birləşdirilmişdir.

Hər mahalın naibləri bilavasitə Qara xana tabe idilər. Bir cəhətə diqqət vermək lazımdır ki, mahal naibləri – başçılar mahalda vergi və digər mükəlləfiyyətlərin toplanılmasına nəzarət edir, eyni zamanda da, xanlıq hakimiyyətinə qarşı hər hansı xarici təhlükə baş vermiş olsaydı, əsgəri qüvvələrlə hakimiyyətin qorunub saxlanılmasında fəallıq göstərirdilər. Bundan başqa, mahallarda icarə ilə xidmət edən xüsusi hərbi dəstələr də saxlanılırdı. Bu yolla xanlıqda möhkəmlik yaranmışdı.

Qeyd etmək lazımdır ki, özünə güvənən bəzi feodal qüvvələr yaranan vəziyyətdə onların itaətdə olmalarına

[1] Səidəli Kazımbəy oğlu. «Səidiyyə» səh. 32 – 49.



downloaded from KitabYurdu.org

üstünlük verirdilər. Elə vəziyyət yaranmışdı ki, vaxtı ilə Qorqanqrud və Asalim tərəfdən iki qardaş özünü müstəqil hesab edirdilərsə, yaranan vəziyyətdən ehtiyatlanaraq xanın əmr və sərəncamına danışıqsız tabe oldular. Bu cəhətdən həmin qüvvələr sırasında tanınan Aslan xan Qəhhar və İbrahim xan əvvəlki mövqelərindən əl çəkməli olmuşlar. Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun yazdığı kimi *«Həmin şəxslər (Aslan xan Qəhhar, İbrahim) son nəticədə Qara xanla birləşmiş, Gilanlı Hidayət xana qarşı mübarizəyə qoşulmuşlar»* [1]. Qeyd etdiyimiz kimi Qara xan çox cəsarətli adam idi. Ona məlum idi ki, xarici qüvvələr Talış xanlığını heç bir zaman dinc qoymazlar. Ona görə də xanlığı qoruyub saxlamaq üçün ilk növbədə silahlı qüvvə olmalıdır. Diyarın əhalisini hakimiyyətdən razı salmaq üçün isə iqtisadi vəziyyətdə dönüş yaratmağı, ticarəti genişləndirməyi, adət – ənənələri qorumağı, maarifçiliyə meyli gücləndirməyi vacib bilirdi. Qara xanın hərəkətlərindən razı qalan xalq onun ətrafında daha sıx birləşirdi.

Qara xan mülkiyyətinin artırılmasına da xüsusi diqqət yetirirdi. Bir çox hallarda divan torpağına əlavə xana «xas» hüququ da vermişdi. Həmin mülkiyyət bilavasitə xan sülaləsinə məxsus idi. Xanın torpağını rəiyyətlər, bir çox hallarda isə heç bir imkanı olmayan rəncbərlər becərirdi. Hakimiyyət onlara çox cüzi haqq verirdi.

Talışlı Qara xan, böyük çətinliklər hesabına yeni ordu yarada bilmiş, əvvəlki qoşun (yığma) əhəmiyyətini günü – gündən itirirdi. Hərbi işdə səriştəsi olan Qara

[1] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Göstərilən əsəri.



xan qoşuna, onun hərbi hazırlığına şəxsən özü nəzarət edirdi. Qoşunu odlu silahlarla silahlandırmışdı.

Arxiv materiallarında Qara xanın hökmranlığı dövründə xanlığın daimi qoşunu haqqında geniş məlumat verilir. Həmin sənəd Moskva şəhərindəki Mərkəzi Hərbi Arxivdə mühafizə olunur. Sənəddə yazılır: *«Qara xan hakimiyyətinin ilk illərində xarici təhlükədən qorunmaq üçün 3000 nəfərə qədər hazırlıqlı, yüksək təlim görmüş qoşun yaratdı!.*[1] Əlbəttə, 3000 nəfərlik bir ordu xanlıq üçün kifayət deyildi, lakin müvəqqəti olsa da xanlığın daxilindəki əmin – amanlığı mühafizə edə bilərdi. Ordu yaratmağın çətinliyini Qara xan yaxşı görürdü. Çətinlikdən çıxış yolu axtarmağa başladı. Həmin yolu isə xalqa müraciətdə gördü. Müraciətdə deyilirdi ki, *Talışın sahibi burada yaşayanlardır. Burada yaşayan hər bir sakin onu qorumağa borcludur.* Qara xanın müraciəti bütün diyarda böyük canlanmaya səbəb oldu. Gənclər hətta yaşlı adamlar da bir nəfər kimi diyarın qorunması üçün orduda xidmət etməyə razılıqlarını bildirmişlər. Başqa cür də ola bilməzdi. Diyar həmişə talanlara məruz qalmış, insanların nahaqdan qanı axıdılmışdı. Burada bir daha aydın olur ki, Qara xan diyarın hakimi olmaqla yanaşı insanların qəlbinə yol tapmaq məharətinə də malik olmuşdu. Maraqlı cəhət orasındadır ki, həmin müraciətə qadınlar da qoşulurdular.

Qara xan Talışlı diyarın qorunub saxlanılmasında dövlətlərlə əlaqəyə də xüsusi yer ayırmışdı. O bilirdi ki, Gürcüstan çarlarının Rusiya imperiyası ilə yaxın əla-

[1] Mərkəzi Dövlət Hərbi Elmi Arxivi Moskva, iş 14.1-ci hissə, vərəq 148.



downloaded from KitabYurdu.org

qələri var. Buna görə də həmin çarlıq ilə əlaqə yaratmışdı. Nəinki Talış xanı, Azərbaycanın bir sıra xanları da bu istiqamətdə fəaliyyət göstərirdi. Moskvada Rusiyanın Xarici Siyasət Arxivində saxlanılan sənəd bu faktı bir daha təsdiq edir. Sənəddə 17 Azərbaycan hakiminin müraciətində Qara xan Talışınskinin də adı vardır. İlk dəfə olaraq həmin sənəddə Qara xan deyil, Talışinski kimi qeyd olunur.[1] Həmin sənəd 1783-cü ildə imzalanmışdır.

Qara xan Azərbaycanın digər xanları ilə əlaqə saxlamaq arzusunda olmuşdur. Lakin xanlıqlar arasında birliyin olmaması həmin əlaqələrin möhkəmlənməsində çətinliklər yaradırdı. Belə şəraitdə İran tərəfi məqsədinə çatmaq üçün, xanlıqların daxili işlərinə missionerlər vasitəsilə maneçilik edirdi. Talış xanlığında həmin missionerlər daha çox fəaliyyət göstərirdilər İranın Talışdakı missionerlik fəaliyyətində Gilan xanı Hidayət xan daha çox fəaliyyət göstərirdi. Hansı yolla olursa – olsun burada öz hökmranlığını yaratmağa çalışırdı. Sənədlərdə Hidayət xan hiyləgər kimi göstərilir. Hiyləsini işə salır. Qara xana qarşı olan feodalları öz tərəfinə çəkir, burada qarmaqarışıqlıqlar yaradırdı. Qara xan isə belə çətinliklərin öhdəsindən məharətlə gəlirdi. Sərhəddə möhkəm intizam yaratmışdı. Lakin düşmən tərəfi iddiasından əl çəkmirdi. Hidayət xan məkrini həyata keçərmək məqsədi ilə, nisbətən güclü görünən Kərim xan Zəndlə sazişə girir, birləşmiş qüvvələr 1768-ci ildə 12000 nəfərlik qoşun ilə Talış xanlığına hücuma keçir. Qara xan çətinlik qarşısında qalmışdı. Rusiya tərəfdən

[1] Bax: AVRP. Rusiyanın Xarici Siyasət Arxivi, iş 18, vərəq 19: eyni zamanda Rusiyanın Hərbi Elmi Arxivində – f-52, siyahı 1194, iş. 206, 1 hissə, vərəq 185.



də kömək yox idi. 1779-cu ildə Kalarudxanda Hidayət xan və Kərim xan Zəndin birləşmiş qoşunu ilə Qara xan qoşunları arasında qanlı döyüş başlanır. Həmin qanlı döyüşdə Talış feodallarından Şücaəddin və Zöhrab bəy satılaraq Qara xana qarşı vuruşda iştirak edirdi. Qara xan çətin vəztiyyətə düşdüyündən Kalarudxandan Şindan qalasına çəkilir. Beləliklə, da Qara xan daxili satqınlıq nəticəsində ilk dəfə məğlub olur. Səidəli Kazımbəy oğlu Şindan qalası haqqında yazır: «Məşhur Şindan qalası hündür dağın başında yerləşir. Onun hansı dövrdən bizə qalması məlum deyil. O qala Astara nahiyəsinin qərb hissəsində yerləşən Ərçivan kəndi səmtində başqa dağlardan daha hündür dağ kimi məşhur olan dağın başında yerləşmişdir və qonşu dağların heç biri ilə bitişik deyil. Həmin dağların arasında yerləşir».[1]

Göründüyü kimi Şindan qalası müdafiə olunmaq üçün, eyni zamanda düşmənə qarşı müqavimət üçün ən sərfəli qala idi. Məhz həmin cəhətləri nəzərə alan Qara xan, Gilanlı Hidayət xana həmin möhtəşəm qaladan müqavimət göstərməyi daha vacib sayır.Səidəli Kazımbəy oğlu yazır: *«Azuqənin qurtarması nəticəsində Şindan qalasını boşaltmış və oradan qaçmışdır».*[2] Görünür, müəllif həmin məsələdə qeyri – dəqiqliyə yol vermişdir. Hər tərəfdən mühasirədə olan qoşunun maddi çətinlikləri Qara xanın qaladan qaçmasına imkan verə bilməzdi.

Həmin hadisəyə Mirzə Əhməd Mirzə Xudaverdi oğlu münasibətini belə qələmə alır: *«Rəştli Hidayət xan öz qoşunu ilə Şindan qalasına getdi. Rəştli Hidayət xan gəlib gördü ki, Qara xan Mir Mustafa xan, Mir Əsgər*

[1] Səidəli Kazımbəy oğlu. Göstərilən əsəri, səh. 112.
[2] Yenə orada, səh. 113.



downloaded from KitabYurdu.org

*bəy, Şahpələng bəy və onların müttəfiqi olan Mehrəli bəy, Ağa Qəni, Ağa Əbdül və digər şəxslər Şindan qalasına çəkilib möhkəm istehkam arxasında yerləşmişlər. Onlarla bir neçə dəfə müharibə etdisə də rəştli Hidayət xan məqsədinə çata bilməyib məğlub oldu. Nəhayət, qalanı mühasirədə saxladı. Həmin mühasirə iki il davam etdi. Qaladakılar ərzaq çatışmazlığından çox çətinlik çəkirdilər. Aman istədilər. Onlar (Qara xan tərəfi) az qaldı ki, aclıqdan bir – birini yesinlər. Nəticədə çarəsizlikdən qaladan çıxıb Aman istədilər. Hidayət xanın hüzuruna gəldilər. Rəştli Hidayət xan QURANA And içdi ki, siz mənə itaət etsəniz, günahlarınızdan keçərəm. Keçmişdə olduğu kimi yenə də sizi Talış vilayətinin hakimi təyin edərəm. Lakin onlar yetişən kimi rəştli Hidayət xan Qaraxanı, Mir Mustafa xanı, Mir Əsgər bəyi və Şahpələng bəyi həbs edib, ailələri ilə birlikdə Rəştə göndərdi».*[1]

Bu xəbər Talışda böyük həyəcana səbəb oldu. Hər yerdə gilanlı Hidayət xana qarşı üsyanlar başlandı. Qara xan və oğlanlarına qarşı Rəşt həbsxanasında insana yaraşmayan hərəkətlər davam edirdi. Mirzə Əhməd bu barədə yazır: *«Rəşt həbsxanasının mənzili qarşısında bir çay axırdı. Giləklər hər səhər çılpaq vəziyyətdə suda oynayırdılar. Onların bu hərəkətləri Mir Mustafa xanı hiddətləndirib… seyid peyğəmbər övladlarına belə hərəkətləri göstərmək ədəbsiz hesab etmişdi .*[2]

Talışın bütün yerlərində Hidayət xana qarşı böyük üsyanlar ara vermirdi. Üsyan bir çox hallarda Rəştdə də özünü göstərirdi. Çarəsizlikdən Hidayət xan Qara

---

[1] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Göstərilən əsəri, səh. 39.
[2] Yenə orada.



xanı və oğlanlarını həbsdən azad edir. Qara xan hakimiyyətini davam etdirir.

Çar Rusiyası isə həmin hadisələr zamanı seyrçi mövqeyi seçmişdi. Qara xanın məğlubiyyəti Talış xanlığında böyük kədərlə qarşılandı, xalq öz iradəsindən əl çəkmədi – nəyin bahasına olursa – olsun, Qara xan və oğlanları azad olunmalıdır. Talış xanlığından Hidayət xanın qovulması üçün hamı birləşdi. Lakin xanın hakimiyyətdən uzaqlaşması əslində böyük çətinliklər yaratmışdı. Çar məmurlarından İvan Varfalayeviç bu barədə yazır: *«Qara xanın Hidayət xan tərəfindən məğlubiyyəti təəssüflər doğurur. Qara xan əsir düşsə də talışlar Hidayət xana müqavimət göstərirdilər, döyüşdən yayınmırdılar, torpaqlarını mərdliklə qoruyurdular» .*[1]

Talış xalqı Qara xanı azad etmək üçün diyarda xanlıq ərazisində cihad elan etdi. Talışların qəzəbindən qorxuya düşən Hidayət xan, Qara xan və oğlanlarını əsirlikdən azad etməyə məcbur oldu. Beləliklə də, Qara xan yenidən Talışda hakimiyyətini davam etdirməyə başladı. Qara xan, Hidayət xan tərəfindən məğlub edilməsini, ələlxüsus, əsir düşməsini heç cür yaddan çıxara bilmir, Hidayət xandan qisasını almaq üçün ciddi hazırlıq görürdü. Tədbirlər görməyə başladı., möhkəm ordu yaratmaq üçün bütün əyalətlərə bir daha səfərlər təşkil etdi. Həmin səfərlərdə xalq bir nəfər kimi Qara xan ətrafında birləşmək arzusunda olduğunu bəyan etmişdilər. Bu işdən Qara xan daxildən özü üçün dinclik hiss edirdi. Qara xan tədbirli idi. Hidayət xana qarşı hücuma keçməmişdən əvvəl, daxildə ona qarşı olan qüvvələrlə haqq – hesab çəkməli idi. Daha çox

---

[1] Rusiyanın Xarici Siyasət Arxivi. İş. 18., vərəq. 291.



downloaded from KitabYurdu.org

canfəşanlıq edən, iranmeyilli Şahmar bəy idi. Qara xan Şahmar bəyi itaətə dəvət etsə də, lakin inadkar Şahmar bəy Qara xanın tələbinə əməl etmir, onun hüzuruna gəlməkdən imtina edirdi. Belə olduqda Qara xan, Şahmar bəyə qarşı daha ciddi tədbirə əl atır, üzərinə qoşun göndərir, beləliklə, Şahmar bəyin müqaviməti qırılır və əsir edilir. Qara xanın sərəncamı ilə Şahmar bəy edam olunur. Bu kimi digər qüvvələr də mövcud idi. Həmin qüvvələrin başında Şücaəddin bəy dayanırdı. Vaxtı ilə o, Hidayət xanın Qara xana qarşı apardığı döyüşdə iştirak etmişdi. Qara xan Şücaəddin bəyə divan tutmaq üçün Astara istiqamətinə qoşun göndərir. Şücaəddin bəy Gilana qaçmaqla canını xilas edir.

Qara xan hadisələrin gələcəkdə necə cərəyan edəcəyini yaxşı görürdü. Rusiyadan isə səs çıxmırdı. O, Azərbaycanın digər xanlıqları ilə bir daha diplomatik əlaqələr yaratmağa başlayır. İttifaq bağlamaq baxımından daha münasibi Ərdəbil xanlığı idi. Qara xanın Ərdəbil xanı Nəzərəli xanla əlaqə saxlamasının bir sıra səbəbləri var idi. Birincisi, hər ikisi qan qohumu olub Səfəvi nəslindən idilər. Digər tərəfdən də hər iki tərəfin İranla münasibətləri gərgin idi. Uzun danışıqlardan sonra hər iki xanlıq arasında saziş imzalandı və birləşmiş tərəflərin Gilanlı Hidayət xana qarşı hücumu başlandı. Az bir vaxt ərzində Rəşt ələ keçirildi. Hidayət, xan müqavimət göstərmək iqtidarında olmadığından Gilanın paytaxtını tərk etmiş, İranın başqa əyalətlərinə qaçmaqla canını qurtara bilmişdi. Beləliklə, Qara xan Hidayət xandan hayıfını ala bilmişdi. Bir müddət Gilan Talış və Ərdəbil xanlığının ixtiyarında qalır. İran şahı isə bu işə biganə qala bilmir və Gilanı ələ keçirmək



məqsədi ilə hücuma keçir, nəticədə Gilan xanlığının İranın təsirinə düşməsinə nail olur.

Qara xan Azərbaycan xanlıqlarının çoxuna məktubla müraciət edir. Məktubda İranın Azərbaycanı sakit buraxmayacağını bildirir. Lakin əksər xanlıqlardan cavab ala bilmir. Nəhayət, Qara xan, nisbətən güclü olan qubalı Fətəli xanla diplomatik əlaqələrin yaradılmasına çalışır. Bu məqsədlə qardaşı Kərbəlayı Sultan başda olmaqla, böyük hədiyyələrlə danışıqlar aparmaq və Fətəli xanla ittifaq bağlamaq üçün Qubaya nümayəndə heyəti göndərir.[1] Qubalı Fətəli xan nümayəndə heyətini qəbul edir. Kərbəlayı Sultan Qara xanın Fətəli xana ünvanladığı məktubu ona təqdim edir. Onun Fətəli xana ünvanladığı məktubdan oxuyuruq : *«Fətəli xanın simasında ən etibarlı bir müttəfiqi görməyə çox şad olardım. Göndərdiyim kiçik hərbi hissə də Sizin xidmətinizdə olacaqdır»*.[2] Bu yolla Qara xan qubalı Fətəli xanın rəğbətini qazanmağa çalışırdı. Qara xan tərəfindən göndərilən nümayəndə heyəti Qubada böyük hörmətlə qarşılanır, kiçik ordu göndərilməsi münasibəti ilə Fətəli xan Qara xana cavab məktubu yazıb bildirir ki, *Talış xanlığı ilə ittifaqda olmağı o da özü üçün böyük şərəf hesab edir.* Təəssüf ki, sonra Fətəli xan vədinə əməl etmir. Qubalı Fətəli xan daha böyük arzularla yaşayırdı, onun Cənubi Azərbaycana sahib olmaq planları var idi. Bu planları həyata keçirmək yolunda Talış xanlığının mövcud olması onun imkanlarını məhdudlaşdırırdı. Məhz bu kimi məqsədlər ona Talış xanlığına yaxınlaşmağa imkan vermirdi. Fətəli xan Cənubi Azərbaycanda ilk növbədə Ərdəbil xanlığı-

---

[1] Firudin Əsədov. Talış xanlığının Quba xanlığı ilə əlaqəsi.
[2] Firudin Əsədov. Göstərilən əsəri.



downloaded from KitabYurdu.org

nın varlığına son qoymaq üçün Talış xanlığını «himayəsində» görmək arzusunda idi. Fətəli xan məxfi şəkildə elə hərəkət edirdi ki, Talış xanı onun hiylələrindən xəbər tuta bilmirdi. Talışın əlverişli iqlimi, zəngin sərvətləri, strateji mövqeyi onun yuxusunu qaçırmışdı. O bilirdi ki, Talışa hücum edərsə, Qara xan hələlik ona müqavimət göstərmək imkanına malik deyil. Talışa sahib olmaq üçün tədbirlər planı hazırlamağa başladı. Qara xanın müasirlərindən birinin yazdığı kimi *« o çox cəsur və* ağıllıdır, xanlığı idarə etməkdə çox mahir hakimdir».[1] Qara xan da bir sıra xüsusiyyətlərinə görə Fətəli xandan seçilirdi. Əgər Fətəli xan, başqa xanlıqları müharibə yolu ilə işğal etməkdə mahirlik göstərirdisə, Qara xan nahaqdan insan qanı axıdılmasının tərəfdarı deyildi. Xanlıqlar arasında dostluq münasibətlərinin yaradılmasına çalışırdı. Qara xan Azərbaycan xanlıqlarının birliyini yaratmaq arzusu ilə yaşayırdı. Fətəli xan isə diplomatiyasında digər xanlara vədlər verir, dostluqda «sədaqətli» olacağını bildirir, özünün bəd əməllərini gizlədir, lazım gəldikdə isə hərbi qüvvəsi ilə bu və ya digər xanları hədələməkdən də istifadə edirdi. Qara xan insanlara inanan, dinə çox meyilli, seyid övladı idi. O, qubalı Fətəli xanı da özü kimi anırdı. Dostluqda hiylə nə olduğunu bilmirdi. Heç bir şeyə ehtiyacı da yox idi, tox nəfsli şəxsiyyət idi. Xanın öz mülkündən böyük gəliri var idi, təkcə heyvandarlıqdan ildə 2 min manat gəliri olurdu.[2] Başqa sahələrdən də «xəzinəsi» çoxlu miqdarda vəsaitə malik idi. Fətəli xan, hiyləgərcəsinə, Qara xanı yayındırmaq üçün, gilanlı

[1] Гаси Абдуллаев. Из истории северно – восточного Азербайджана в 60-80 годах. Баку 1958. səh.111.
[2] SSRİ EA-nın Arxivi (Leninqrad) fond -99, iş.13, vərəq. 29.



Hidayət xan tərəfindən ona qarşı yaradılan təhlükəyə guya köməklik də edirdi. Bu köməkliyin arxasında Fətəli xanın böyük məkrləri gizlənmişdi. Bu yolla da Fətəli xan Qara xanı özündən asılı vəziyyətdə saxlamağa çalışırdı. Beləliklə, qubalı Fətəli xan Talışı himayəsinə almaq üçün imkanları birləşdirirdi. O siyasi üstünlük qazanmaq məqsədi ilə Cənubi Azərbaycana yürüşə hazırlaşdı.[1] 1781-ci ildə əmisi oğlu Mirzə bəy Boyatı bu yürüşə hazırladı. Yürüşə başlamazdan əvvəl o, gilanlı Hidayət xanla ittifaqı bərpa etdi. Bu əlaqəni sübut etmək üçün Mirzə bəy Boyatın qoşunu Səlyan və Talışdan hərəkət edib, Rəştə daxil oldu və Hidayət xanın hakimiyyətini bərpa etdi.[2]

Fətəli xanın Hidayət xanın hakimiyyətinin bərpa olunmasına köməyi Qara xanı bərk çaşdırdı. Hidayət xanın təhlükəsi Talış məsələsində müttəfiqi saydığı Fətəli xana etirazını bildirsə də, Fətəli xan ona əhəmiyyət vermədi. Fətəli xan bundan sonra Ərdəbilə hərəkət etmək üçün hazırlaşdı. Fətəli xanın məqsədi tam açıldı. Çünki Fətəli xanın bu yürüşü gələcəkdə Talış xanlığı üçün yaxşı heç nə vəd etmirdi. Qara xan da öz növbəsində bir sıra tədbirlərə əl atmağa məcbur oldu. Bu barədə Rusiyanın İrandakı səfiri İ.Tumanovski 1784-cü ildə yazırdı: «*Talışlı Qara xan və Aslan xan Fətəli xanın Səlyandan Ərdəbilə hərəkət etdiyini eşitdikdə, ərdəbilli Nəzərəli xan, şamaxılı Məmməd Səid xanın iştirakı ilə müşavirə çağırıb Fətəli xanın qüvvətlənməsinə mane olmaq istəmişlər*».[3]

[1] Firudin Əsədov. Talış xanlığı, səh. 52.
[2] Yenə orada.
[3] Rusiyanın Xarici Siyasət Arxivi. İş 3, vərəq. 225.



downloaded from KitabYurdu.org

Artıq tədbirlər planı haızrlamaq Qara xan üçün gec idi. Fətəli xan Qara xanla ittifaqdan imtina etmişdi. O, hazırlığını görmüşdü. Qara xan Rusiya ilə dostluğa ümid bəsləyirdisə, Fətəli xanın Rusiya ilə dostluğu artıq reallığa çevrilmişdi.

Sözsüz ki, böyük üstünlüyə malik olan Fətəli xanın qarşısında Talış, Ərdəbil və digər xanlıqlar gücsüz idi. Fətəli xan Ərdəbil və Mişkini müqavimətsiz işğal etmiş və böyük ədalətsizlik edərək, keçmiş müttəfiqi Qara xanı, onun oğlanlarını əsir edib Bakıya göndərmişdi.[1]

Tarixçi İ.Q.Butkov yazır*: «1774-cü ildə Fətəli xan Qara xan və oğlanlarını əsir edib Bakıya göndərmişdir. Həmin ilin oktyabrında isə onları əsirlikdən azad olunması haqqında sərəncam verdikdən sonra onlar Talışa gəldilər».*[2] Görünür ki, Fətəli xanı bu barədə sərəncam verməyə məcbur edən Rusiya tərəfinin təsiri olmuşdur. Qara xan əsirlikdən azad olan kimi diyara gəlmiş, onun Talışa gəlişini insanlar sevinclə qarşılamışlar. O, təkrarən Rusiyaya müraciət edir, onun nümayəndə heyəti Həştərxanda olur. Həştərxandakı general-qubernatorla görüşündə, Rusiyanın Talış xanlığına kömək edəcəyi bir daha təkrarlanır. Talış xanlığının nümayəndə heyəti Peterburqa getmək arzusunda olsa da general – qubernator buna razılıq vermir.

Qara xan diyarın mərkəzinin Astaradan daha münasib yerə köçürülməsi barədə götür – qoy edir, nəhayət, daha əlverişli strateji mövqeyə malik olan Lənkərana –Ləngərgünana dəyişilməsi barədə sərəncam

[1] Firudin Əsədov. Talış xanlığı, səh. 53.
[2] П.Г.Бутков. Материалы для новой истории Кавказа с 1722 – по 1803гг. СПБ. 1869.



verir. Lənkəran ilk vaxtlarda kiçik yaşayış məntəqəsi olub. Lakin diyarın başqa yerləri ilə əlaqə saxlamaq üçün Lənkəranın coğrafi mövqeyinə görə Astaraya nisbətən daha əlverişli olmasını xan yaxşı başa düşürdü. Lənkəranın mərkəz olmasının ilk vaxtlarında burada olan səyyahlar bu barədə öz xatirələrində belə yazmışlar. Məsələn, Rusiyanın İrandakı səfiri A.Volınski yazır: *«İrana gedərkən gəmi ilə ilk dayanacaq yerLəngərgünan oldu. Ləngərgünanda artıq Qara xanın mərkəzi xatırlayan yaşayış evləri var idi. Həmin mənzillər qamışdan idi. Qara xan həmin komaların yerində yeni evlərin salınmasına sərəncam vermişdi.*[1]

Qeyd etmək lazımdır ki, mərkəzin Astaradan Lənkərana köçürülməsi heç də o demək deyildi ki, Astaraya olan diqqət azalmışdı. Əksinə, Astara əvvəlki kimi diqqət mərkəzində saxlanılmışdı. Burada da bir sıra məscidlərin, hətta dini təhsil məktəblərinin tikilməsi yaddan çıxarılmamışdı. Astaradakı kimsəsiz uşaqlar Lənkərana köçürülərək, himayəyə götürülmüşdü.

Qara xan Lənkəranda kompleks-tikinti, abadlıq işləri gördürür, müxtəlif yerlərdən sənətkarlar gətirərək az bir vaxt ərzində saraylar, evlər, məscidlər inşa etdirdi, möhkəm qala tikdirdi.

Lənkəran qalası Lənkəran çayında və dənizdən 120 sajen aralıda idi. Ümumi sahəsi 335 sajen idi. Şəhərdə sənətkarlığın inkişafına xüsusi diqqət yetirilirdi.

Eyni zamanda Lənkəranda ticarətin, xanlıq hakimiyyətinin iqtisadiyyatının yüksəlməsinə xüsusi fikir verilir. Talış diyarına gələn tacirlər üçün yaxşı şərait yaradılır, karvansaralar tikilir, yollar təmir olunur,

[1] Mərkəzi Hərbi – Elmi Arxivi. Moskva, iş. 149, vərəq 19



downloaded from KitabYurdu.org

şəhərdə iki yerdə bazarın olmasına təşəbbüs göstərilir. Beləliklə də, Lənkəranda indi də Kiçik bazar və Böyük bazar adlandırılan ticarət mərkəzlərinin əsasını məhz Qara xan qoymuşdur. Artıq Lənkəranda bazar münasibətləri formalaşmışdı, misgərlik, dulusçuluq və s. kimi qədim sənət növləri genişlənmişdi. Qara xanın vaxtı ilə Milli memarlıq üslubunda Lənkəranda tikdirdiyi hər bir bina əvəzsiz sənət əsəri, tarixi abidə kimi diqqəti cəlb edir. Bu baxımdan Xan sarayı gözəlliyinə görə memarlıq nümunəsi kimi ikimərtəbəli, pəncərələri şəbəkə və rəngarəng şüşələrdən ibarət idi.[1] Lənkəran Xan sarayı bir çox xarici talanlar nəticəsində dağılandan sonra ona oxşar həmin saray bərpa olunmuşdu.

1777-ci ildə Lənkəranda olmuş İrandakı rus səfiri Yablonski yazır: *«Lənkəranda Qara xanın iqamətgahı başqa binalardan gözəlliyi ilə seçilirdi. Xanın divanxanasına tamaşa etməkdən doymaq olmurdu».*[2] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu yazır ki, Xan sarayı, dərya kənarında idi.

Sonrakı illərdə Rusiya dövləti orada möhkəm bürc tikmişdi. Bu bürcün yerində xanın divanxanası olurdu.[3]

Qara xan, bir sıra ölkələrdən Lənkərana sənətkarları gətirməklə, şəhərdə memarlıq abidələrinin tikilməsi ilə yanaşı, memarlıq sənətinin tətbiqi nəticəsində şəhərin gözəlləşməsinə qayğı ilə yanaşırdı. Xan sarayı, şəhərin gələcək inkişafına xüsusi təsir göstərirdi. Digər imarətlərin də onunla həmahəng olması məsələsi xanın diqqətində idi. Qara xanın Lənkəranda bir sıra mədrə-

[1] Mərkəzi Hərbi Arxiv. İş.796, vərəq. 239.
[2] Mərkəzi Hərbi-Elmi Arxiv, iş.796, vərəq.346.
[3] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Göstərilən əsəri, səh. 34.



sələrin təşkilində xidməti danılmazdır. Həmin mədrəsələrdə dərs demək üçün Kərbəladan, digər dini mərkəzlərdən məşhur üləmalar gətirilirdi. Mədrəsələrdə ərəb, fars, hətta yerli azəri dillərinin öyrənilməsi diqqət mərkəzində olmuşdur.

Talış diyarında Qara xanın bilavasitə qayğısı sayəsində ipəkçilikdə nailiyyətlər əldə olunmuş, burada istehsal olunan ipək məhsulları başqa yerlərdəki ipəkdən keyfiyyətinə görə üstün olduğundan məşhurlaşmışdı. Burada istehsal olunan ipək demək olar ki, Azərbaycanın hər yerinə, daha çox Rusiyaya ixrac olunurdu. Arxiv sənədlərinin birində qeyd olunur ki, *«Qara xanın hakimiyyəti zamanı Lənkəranda ildə 3000 batman ipək istehsal olunurdu».*[1] Qara xan Talışda düyüçülüyün, balıqçılığın və s. iqtisadi sahələrin inkişafına böyük əhəmiyyət verirdi. Xanın təkcə heyvandarlıqdan illik gəliri 2000 manatdan çox olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, Qara xan mədəniyyətə, maarifçiliyin inkişafına böyük fikir verirdi. O, başqa yerlərdən Lənkərana alimlər, memarlar və s. mütəxəssislər dəvət edir, əhali arasında sənətkarlığın, təhsilin daha da geniş yayılmasına çalışırdı. Elə buna görə də Talışda ziyalıların sayı xeyli artmışdı. Coğrafiyaşünas alim, səyyah Hacı Zeynalabdin Şirvani yazır: *«Lənkəranda olarkən Ayaz adında bir alimlə tanış oldum. Söhbətində Qara xanın vəsaiti hesabına İran, İraq, Bombeydə təhsil aldığını bildirdi».*[2]

Qara xanın Talış diyarında həyata keçirdiyi tədbirlər həmişə bu diyara sahiblik arzusunda olan İran tərəfini narahat edirdi, bir neçə dəfə Talış xanlığı ərazisində

[1] F.Əsədov. Talış xanlığı, səh. 67.
[2] H.Z.Şirvani. «Büsütani – siyahə» əsəri, səh. 126.



downloaded from KitabYurdu.org

təxribatlar yaratmışsa da Qara xan həmin təxribatların qarşısını almağa müvəffəq olmuşdu.Talış xanlığına qarşı Hidayət xan da düşmən mövqeyini dəyişməmişdi. Onun da qarşısı alınmışdı. Qara xan bilirdi ki, Talış xanlığındakı abadlıq, hərbi qüvvəyə qayğı, insanların bir qədər sakit həyat tərzi düşmənlərində narahatçılıq yaradır. Cəsarətli xan, vaxtaşırı diyarın mahallarında olur, vəziyyətlə yaxından tanış olur, yaranan çətinliklərin aradan qaldırılmasına sərəncam verirdi. Qara xanı Rusiyaya meyl göstərməyə də yaranmış şərait sövq etmişdi. Bu, Rusiyanın marağını tam təmin etdiyindən aldadıcı vədlərlə xanı sakitləşdirmə siyasətindən geniş istifadə edilirdi. Qara xan Rusiyanın məkrli siyasətindən xəbərdar idi, amma bunu açıq şəkildə ifadə etmirdi. İrandakı rus konsulları da Qara xanın Rusiyaya sədaqətli olması barədə mərkəzə məlumat verirdilər. Belə bir faktı qeyd etmək lazımdır ki, rus gəmiləri Həştərxandan İrana üzdükdə bir neçə dəfə quldurlar tərəfindən basqınlara məruz qalsalar da, Qara xan onları xilas etmişdi. İran konsulunun bu barədə imperatorun adına yazdığı məktubunda həmin məsələ tam aydınlığı ilə özünü sübut edir. 1754-cü ildən səfir Petr Çekalevski yazırdı: *«Həştərxandan gəmilərimiz Lənkərandan bir o qədər də uzaq olmayan Astaraya gəldikdə İran quldurları tərəfindən tutuldu. Bu ərazidə çox böyük nüfuza malik Lənkəranlı Talış xanı Qara xan xəbər tutan kimi dərhal işə qarışıb gəmilərimizi azad edirdi».*[1]

Sənədlərdən bəllidir ki, Qara xan, konsul Petr Çekalevski ilə həmişə əlaqə saxlayırdı. Siyasətdən xəbər-

[1] Hərbi – Elmi Arxiv. Moskva fond – VUA, iş.18471, vərəq.123.



dar olan, rus dilini bilən Qasım bəy gizli yolla, bu işdə xüsusilə yaxından köməklik göstərirdi. Səfir də öz növbəsində Qara xana köməklik edəcəyini birmənalı şəkildə bildirirdi. Arxivdə mühafizə olunan sənəddə əks edilən belə bir fikir diqqəti cəlb edir: *«Petr Çekalevski, Qara xanın nümayəndələrini qəbul etmiş, imperiyaya xanlığın vəziyyəti barədə Həştərxan general – qubernatoru vasitəsi ilə bildirməyi vəd edirdi. İranın Ənzəlidəki konsulu İ.M.İqumov dəfələrlə Talış xanı Qara xanla görüşmüş, beləliklə, əlaqələrin möhkəmlənməsi üçün imkanlarını əsirgəməmələri barədə arzularını xana izhar edirdilər».*

1786-cı ildə Qara xan vəfat edir, onun vəfatı bütün Talış diyarında böyük kədərlə qarşılanır. Hər yerdən, hətta İrandan, Rusiyadan Qara xanın yas mərasimində iştirak edənlər olur. Qara xanın vəfatından sonra böyük oğlu Mir Mustafa xan Talış diyarında hakim elan olunur. Bu təyinatın olması təsadüfi olmamışdı. Qara xan hələ sağlığında oğlunun Talışda xanlıq tituluna sahib olması barədə vəsiyyətnamə imzalamışdı.



downloaded from KitabYurdu.org

## MİR MUSTAFA XAN TALIŞİNSKİ

Qara xan Talışlının ölümü diyarda insanlar arasında böyük sarsıntıya səbəb olsa da, onun qurduğu hakimiyyət sarsılmadı, çünki oğlu Mir Mustafa xanın taxt - tac sahibi olması zamanı yarana biləcək çətinliklərə imkan yaratmadı. Mir Mustafa xan atasından idarəetmə təlimini əxz etmiş, özünəməxsus cəsarəti, iti ağlı ilə sarayda dərin hörmət qazanmışdı. Qazandığı təcrübə ona hakimiyyəti idarə etməyə imkan yaratmışdı. Beləliklə, saray məmurlarının yekdil razılığı ilə taxta oturan Mir Mustafa xan 1786 – 1814-cü illərdə Talış xanlığını idarə etmişdir.

Mir Mustafa xanın hakimiyyəti dövrü bütün Azərbaycanda olduğu kimi, Talışda da gərgin bir dövrə təsadüf edirdi. Həm ölkə daxilindəki əks qüvvələr, həm də dişlərini diyara qıcamış xarici dövlətlər, xüsusən də İran tərəfi fəallıq göstərirdi. İran şahları və onun himayəsində olan xanlıqların hakimləri Talışı bir an «unuda» bilmir, yuxularında da məkrlə yaşayırdılar. Gənc olmasına baxmayaraq Mir Mustafa xan siyasi vəziyyəti düzgün analiz edə bilir və zəruri tədbirlər həyata keçirməkdə gecikməməyə çalışırdı. O, hələ hakimiyyətə gəlməmiş bir çox hallarda daxildəki gərginliyin aradan qaldırılmasında şəxsən iştirak etmiş, saraydakı müzakirələrdə iştirak etməklə yanaşı özünün parlaq qabiliyyətə malik olmasını irəli sürdüyü uzaqgörən təklifləri ilə göstərmiş, məsələlərin həllində atasının ən yaxın köməkçisinə çevrilmişdi. Bütün bunlar ona hakimiyyəti əldə saxlamağa imkanlar yaradırdı. Mir Mustafa xan sarayda mükəmməl təhsil almış, fars, ərəb



və rus dillərini öyrənmişdi. Mir Mustafa xan gənc olmasına baxmayaraq, İranın və Gilan hakimlərinin Talışa hücumları zamanı həmişə atasının yanında olmuş, döyüş təcrübəsi əldə etmişdi. Bir çox hallarda Talış xanlığında baş verən qiyam, müdaxilələrin yatırılmasında şəxsən iştirak edirdi. Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun yazdığına görə, *«Mir Mustafa xanın evi və imarəti dəniz sahilinə yaxın idi. Rusiya dövləti orada möhkəm qala tikmişdi».*[1]

Bütün bunlar onun Talışda hörmətini artırmışdı. Mir Mustafa xanın keçdiyi yola nəzər saldıqda belə bir mənzərənin şahidi oluruq. O, xarici siyasətində qüvvələrin real nisbətini düzgün qiymətləndirirdi. Özündən güclü düşmənlə konfliktə getməməyə çalışır, özünəməxsus diplomatik manevrlərdən məharətlə istifadə etməklə xanlığı çətinliklərdən xilas etməyi də bacarırdı.

Mir Mustafa xan atasının İrana olan sərt münasibətini təkrar edirdi və bilirdi ki, İran şahının vədlərində səmimilik yoxdur, ona inam hər hansı ölkəni fəlakətə gətirəcəkdir. Mir Mustafa xanın hərəkətlərindən xəbərdar olan İran daha sərt tədbirlər görür, nəyin hesabına olursa – olsun Talış xanlığına diz çökdürmək siyasətini yeridir, xanı sərt mövqedən çəkindirməyə məcbur etmək istəyirdi. Lakin təbiətən cəsarətli, sözündən, fikrindən dönməyən Mir Mustafa xanı belə hədələr qorxuda bilməzdi.

İranda taxt-taca sahib olan Ağa Məhəmməd şah Qacar İranın əvvəlki mövqeyini geri qaytarmağa çalışır, ilk növbədə Azərbaycandakı xanlıqların hakimiyyətinə son qoymaq üçün imkanlarını götür-qoy edərək,

[1] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Göstərilən əsəri, səh. 47.



downloaded from KitabYurdu.org

hücuma hazırlaşırdı. Qacarın işğal planında Talış xanlığı ön sırada dayanırdı. Talışa hərbi yürüş etməzdən əvvəl, Mir Mustafa xana İranla birləşmək, onun himayəsində olmaq təklifi ilə dəfələrlə nümayəndələr göndərmişdi. Mir Mustafa xanın isə mövqeyi qəti idi. O, İran dövlətinin tabeliyində olmağı özü üçün, diyar üçün böyük təhqir sayırdı. Hər dəfə Qacar tərəfindən göndərilən nümayəndələrə sərt cavab vermiş, bəzən də yazılı şəkildə Qacara sərt məktublar da göndərmişdi.

Mir Mustafa xanın sərt cavabları şahı hövsələdən çıxarmışdı. Mir Mustafa xanın İrana belə sərt mövqeyi saraydakılarla yanaşı, demək olar ki, Talış diyarının bütün mərd insanlarına bəlli idi. Mirzə Əhməd Mirzə Xudaverdi oğlu Mir Mustafa xanı yüksək qiymətləndirir, hətta *«Mir Mustafa xanı İran padşahı (şahı) ilə eyni səviyyədə duran Sima»* hesab edir.[1]

Bütün Talış əhalisi birmənalı şəkildə xanın fikrini müdafiə edir, bir nəfər kimi Ağa Məhəmməd şah Qacara qarşı döyüşə hazır olmalarını bildirirdi.

Qacar kəşfiyyat məqsədi ilə Talış xanlığına qarşı hərbi qüvvə göndərir. Talışın bütün insanları Qacar qoşunu ilə mərdliklə vuruşur. Qacarın qoşun hissələri təsəvvür etmədikləri müqavimətlə üz – üzə gəlib, çaş – baş qalır. Böyük fransız yazıçısı Jan Kever Qacara həsr etdiyi «Xacə şah» əsərində bu barədə maraqlı məlumat vermişdir. Müəllif yazır: *«Ağa Məhəmməd şah Qacarın hərbçilərinin Talışa yürüşü başlandı. Xanlığın müdafiəsində kişilərlə yanaşı qadınlar da əlisilahlı vuruşurdular. O qadınlar elə cürətli və məharətli idilər ki, yırtıcı heyvanlardan qorxmur, onları ya öldürür, ya da ram edirdilər. Talış kişiləri belə güclü və cürətli qadınlardan doğulub ərsəyə gəlmişlər. Onları məğlub etmək asan iş deyil».*[1]

[1] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Göstərilən əsəri, səh. 109.



Qacarın qardaşı, Talışa qarşı hərbi yürüşə başçılıq edən Murtuzaqulu xanın da bu barədə etirafı çox maraqlıdır. O yazırdı: *«Ağa Məhəmməd xan inamla Talışa 12.000 nəfərlik qoşun göndərdi. Lakin istədiyi kimi olmadı. Onun qoşunu burada böyük müqavimətə rast gəldi. Talışı işğal edə bilmədi, geri qayıtdı. Qoşunda böyük tələfat oldu. Belə təsəvvür etməzdim».*[2]

Həmin məğlubiyyəti başqa sənədlər də təsdiqləyir. Çar məmuru general – mayor Brançannikov da bu hadisəyə biganə qalmır, öz təəssüratını 1791 – ci ildə imperatorun adına yazdığı məktubların birində belə ifadə etmişdir: *«Talış xanlığını işğal etmək məqsədi ilə Ağa Məhəmməd şahın qoşununa qardaşı başçılıq edirdi. Qacar qoşunu ilk vaxtlarda Talış hakimini sıxışdırdı. Lakin o, Lənkəranda (Ləngərgünanda) ciddi müqavimətə rast gəldi. Böyük itki verərək geri qayıtmağa məcbur oldu».*[3]

Bu faktı tarixçi P.Q.Butkov da qeyd etmişdir.[4] Ağa Məhəmməd şahın Talışa hücumu və onun məğlub olması xəbəri hər yerdə danışılır. Azərbaycan xanlarından bir neçəsi həmin qələbə münasibəti ilə Mir Mustafa xana özlərinin səmimi minnətdarlığını bildirmiş və Talış xanı ilə əlaqə yaratmaq arzularını bəyan etmişlər. Buradan bir daha aydın olur ki, diyarın müdafiə edilməsində şəxsi nümunənin böyük rolu vardır.

[1] Jan Kever. Xacə Şah. 1 kitab. Bakı, 1980, səh. 200.

[2] Rusiyanın Xarici Siyasət Arxivi. ANPR. İş.1, vərəq. 15. Rusiyanın Xarici Siyasət Arxivi. İş.1, vərəq.70.

[3] Бутков. Материалы для новой истории Кавказа.

[4] SPB 1869. I hissə, səh.110.



downloaded from KitabYurdu.org

Mir Mustafa xan uzaqgörən şəxs kimi bilirdi ki, Qacar yenidən hücumlara əl atacaqdır. Mir Mustafa xan da öz növbəsində hazırlıq işi aparmış və bu məqsədlə bütün xalqı ayıq – sayıq olmağa çağırmışdı. Qacar təkrarən Mir Mustafa xanı İrana tabe olmağa dəvət etsə də müsbət cavab ala bilmir.

Mir Mustafa xan onu da bilirdi ki, qüvvələr nisbəti şahın xeyrinədir. Onunla ciddi, qəti döyüşlərə imkanı yoxdur, ona görə də Rusiyadan köməklik istəyir. Rusiyadan isə bütün vədlərinə rəğmən heç bir köməklik hiss olunmurdu. Görünür ki, Çar Rusiyası vəziyyəti bilirdisə də, seyrçi mövqeyində dayanmaqla yaranmış şəraitdən maksimum faydalanmaq fikrində idi. Belə olduqda Mir Mustafa xan başqa yollar axtarmağa başlayır. O, Azərbaycan xanlarının ünvanına məktubla müraciət edir və Qacarın heç bir xanlıq üçün dost olmadığı, yalnız Azərbaycana divan tutmaq məqsədi güddüyünü qeyd edirdi.

Mir Mustafa xanın müraciətinə xanlıqlar tərəfindən müsbət cavab verilmir. Belə olduqda xan Tiflis knyazlıqlarına müraciət edir.

Mir Mustafa xanın gürcü knyazı İraklı ilə isti münasibətlər yaratmasına heç də adi hal kimi baxmaq olmaz. Bu münasibətlər obyektiv zərurətdən yaranmışdı. Mir Mustafa xan çox yaxşı bilirdi ki, Gürcüstanla Rusiya arasında əlaqələr daha qüvvətlidir və gürcü knyazı, xüsusilə İraklı ilə yaxşı münasibətlər Talış xanlığına da Rusiya tərəfindən müdafiə olunması üçün imkan yaradacaq. Digər tərəfdən xana bəlli idi ki, Ağa Məhəmmədin Gürcüstanla heç bir münasibəti yoxdur, daima Gürcüstanı hədələyirdi. Mövcud vəziyyətdə Gürcüstan knyazlarının da Azərbaycan xanlıqları ilə münasibət yaratmağa ehtiyacı vardı. Xan Tiflisə knyaz İraklının yanına nümayəndəsini göndərir. İraklı Qacar təhlükəsinin özü üçün də baş verəcəyini bilirdi. O, Qacara qarşı dayanan Talış xanı Mir Mustafa xanın nümayəndəsini səmimiyyətlə, mehribancasına qəbul edir. Tiflisdə olan İrəvan xanı Məhəmməd xan da Talış xanının mövqeyindən məmnunluğunu bəyan etmiş, ümumi təhlükə olan Qacara qarşı birləşməyi vacib saymışdı. Beləliklə, Tiflisdə tərəflərin birgə müşavirəsi çağrılır. Bu müşavirədə Talış xanı adından nümayəndə heyətinin başçısı Zaman bəy iştirak edir. Həmin müşavirədə Qarabağ xanlığının nümayəndəsi də var idi. Son qərar bundan ibarət olur ki, hamı üçün təhlükə yaradan Qacara qarşı birləşsinlər və bu işdə Rusiyanın köməkliyindən səmərəli istifadə etsinlər.

Zaman bəy Lənkərana qayıdarkən Tiflisdəki hadisələr barədə Mir Mustafa xanı ətraflı məlumatlandırmışdı. Artıq Mir Mustafa xan yəqin edir ki, digər dövlət və xanlıqlar da Qacarın «hansı yuvanın quşu» olmasından xəbərdardırlar. Bütün bunlara baxmayaraq, Mir Mustafa xan daha çox kimdən və haradan zərbə alacağını bilirdi. Ona görə ki, Talış xanlığı İranla yaxın sərhəddədir, eyni zamanda da şahpərəst bir sıra xanlıqlar, xüsusi ilə Gilanlı Hidayət xan Talışı daima təhlükə altında saxlamaq üçün özünə tutarlı bir müttəfiq axtarırdı, belə müttəfiq artıq peyda olmuşdu. Bu Qacar idi. Hidayət xan Ağa Məhəmməd şahın hüzurunda dəfələrlə olmuş, onun himayəsini qəbul etmiş, eyni zamanda şahı inandırmışdır ki, Talışa yürüşdə böyük məmnuniyyətlə iştirak edəcəkdir.


downloaded from KitabYurdu.org

Hidayət xan dəfələrlə Talış xanlığı ərazisinə hücumlar etmiş, məqsədinə nail olmamış, son nəticədə kor – peşiman geri çəkilmişdi. Lakin hiyləgərlikdə ad qazanan Hidayət xanın məkrli qəlbində yenə də həmin arzuları baş qaldırmışdı. Bundan Mir Mustafa xan Talışinskinin də xəbəri var idi, xan bilirdi ki, Hidayət xan Qacara sığınıb. Belə olduqda Mir Mustafa xan daha çevik hərəkət etməyə, imkanlarını götür-qoy etməyə başlamışdı. Birinci növbədə yerli feodalların rəğbətini qazanmaq məqsədi ilə tədbirlər görmüş, imkanlı-imkansızların diyarın mərkəzi Lənkəranda böyük toplantısını çağırmışdı. Həmin toplantıda feodallarla yanaşı, həmişə Mir Mustafa xanın hərbi yürüşlərində şücaət göstərmiş, Şahpələng (Mir Mustafa xanın dayısı), Əhməd bəy, Sadıx bəy, Davud bəy və digərləri də iştirak etmişlər. Lənkərandakı müşavirədə Zuvand, Dereq mahallarının sahibi Nurulla bəy Abdulla bəy oğlu da var idi. Həmin mahallar İranın təhlükəsini daha çox hiss etdiyinə baxmayaraq, cəsurluğu ilə tanınan Nuralla bəy həmin təhlükənin aradan qaldırılmasında Talış xanlığı üçün böyük əhəmiyyət kəsb edirdi.

Mir Mustafa Nurulla bəylə qohumluğundan şəxsən görüşündə maraqlı söhbətlər edir, həmin qohumluqları barədə atası Qara xandan eşitdiyini yada salır, Nurulla bəy həmin söhbətlərdən özündə yeni cəsarət toplayırdı. Müşavirədə Qacar təhlükəsinin aradan qaldırılması məsələsi ön planda idi və nəticədə Talış xanlığında xanın ixtiyarında olan qüvvədən başqa, Talış xanlığının mahallarından 4000 nəfərlik qoşun toplandı. Bunların hərbi hazırlığı demək olar ki, aşağı səviyyədə idi. Mir Mustafa xan bu hissəyə hərbi vərdişlərin öyrədilməsi ilə şəxsən özü məşğul olurdu. Mir Mustafa xanın Qacara qarşı qəti tədbirlərindən Azərbaycanın əksər xanlıqlarının məlumatı olmuşdur. Mir Mustafa xanla əlaqə saxlayan xanlıqlar da tapılmışdı, onlar da Qacara qarşı birgə mübarizə aparacaqları barədə Mir Mustafa xana məktubla müraciət etmişlər. Bu cəhətdən Şuşalı İbrahim xan, Ərdəbilli Nəzərəli xan öncüllər sırasında idi. Sənədlərdən məlum olur ki, qeyd olunan xanlar Mir Mustafa xana 12.000 nəfərlik ordu ilə kömək edəcəklərini vəd etmişlər. Mir Mustafa xan daha dəqiq, uzaqgörən olduğundan vədlərə bir o qədər də inanmırdı. Əslində də həmin vədlər xəyal olaraq sonralar nəticəsiz qalmışdır.

Qeyd etmək lazımdır ki, Ağa Məhəmməd şah Qacarın səbri tükənmişdi. Qəti şəkildə İrana tabe olmayan xanlıqlara qarşı hücuma başlamaq planı hazırlamış, birinci növbədə inadkar Mir Mustafa xana «layiqli dərs vermək» qərarına gəlmişdi. Qacar yenə də özünə məxsus diplomatik manevrini işə salır, Azərbaycan xanlıqlarına məktubla müraciət edir, döyüşsüz təslim olmalarını təklif edir. Mir Mustafa xan isə yenə də Qacarın hədələrindən çəkinməyərək qəti şəkildə şaha rədd cavabı verir, nümayəndə heyətinə -Qacara məktubunda yazdığı hədəyə qarşı özünün hədəsini də bildirir. Məktubunda hətta təhqiredici ifadələr belə işlətməkdən çəkinmir. Qacar Mir Mustafa xanın məktubundan coşsa da, bir qədər də səbr etməli olur. 1795-ci ildə Qacar, Mir Mustafa xanın hüzuruna xüsusi nümayəndə göndərir. Mir Mustafa xan inadından əl çəkmir və Qacarın nümayəndəsinə cavabı belə olur: *«Gedin ağanız Qacara deyin*



downloaded from KitabYurdu.org

*ki, əgər özünü şah hesab edirsə, dəxi mən ondan əskik deyiləm. Onunla heç bir zaman barışa bilmərəm. O şahdırsa, mən də xanam».*[1]

Ağa Məhəmməd şah Qacar, artıq yəqin edir ki, Talış xanını hədələrlə qorxutmaq qeyri mümkündür. Qacarı təkcə Talış xanlığı maraqlandırmırdı, onun iştahı daha böyük idi, bütün Azərbaycanın işğalına çalışırdı. Ağa Məhəmməd şah iki istiqamətdə Azərbaycana hücum planı ilə hərəkət etməyi vacib bilmişdi. Qarabağ istiqamətində hərbi yürüşə şəxsən özü başçılıq edir, «qonşu»su Talışa isə qardaşını göndərmişdi.

İlk döyüşlərdə hər iki tərəfdən böyük itkilər olmuşdur, lakin qüvvələr nisbətində Ağa Məhəmməd tərəfi böyük üstünlüyə malik olduğundan, Mir Mustafa xan çətin bir vəziyyətə düşmüş və müttəfiqlərdən heç bir kömək almayan xan Lənkəranı tərk etmək məcburiyyyətində qalır. Əgər müqaviməti davam etdirmiş olsaydı, diyar xarabalığa çevriləcəkdi, ona görə də döyüşdən əl çəkir və ailəsi ilə birlikdə Lənkərandan bir qədər aralıda yerləşən Sara adasına çəkilməyə məcbur olur. Beləliklə, müqavimət göstərmək imkanını itirir. Sara adasına keçməsinin əsas səbəbi ondan ibarət idi ki, burada rus hərbi istehkamları mövcud idi. Qacar Talış xanlığının əksər ərazisinə sahib olur. Şahın qoşunu evləri talayır, kəndləri yandırır, insanların uzun illər əldə etdikləri sərvətləri, Qacarın göstərişi ilə Talış ərazisində tut ağaclarının belə qırılması sərəncamı verilmişdi. Talışda ipəkçilik sənəti geniş yayılmışdı. Tut ağaclarının məhv edilməsi gələcəkdə ipəkçiliyin inkişafına balta çalmaq idi.

[1] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Göstərilən əsəri, səh. 56.



Qacar Talışdakı «qələbə»dən razı olmasına baxmayaraq, daha sərt tədbirlər görmək barədə sərəncam vermişdi. Bu tədbirlər sırasında ən birincisi Mir Mustafa xanı və ailəsini əsir etmək idi. Sara adasına doğru Qacarın hərbi gəmiləri hərəkət etməyə başlayır. Lakin Qacar qoşunu Sara adasına daxil ola bilmir. Burada böyük hərbi qüvvəsi olan rus eskadrilyası Qacara layiqli müqavimət göstərir.

Məğrurluğu ilə tanınan Mir Mustafa xan belə məğlubiyyətlə barışa bilməzdi. Sara adasında ikən başqa çarəsi qalmadığından yenidən Rusiya imperatoruna köməklik barədə müraciət etmək qərarına gəlir. Sara adasından Peterburqa nümayəndə heyətini göndərmiş, Qacara qarşı döyüşlərdə köməklik istəmişdi. Rusiya Talış diyarına biganə qala bilməzdi. Ona görə də «İrana yürüş» adı altında general V.Zubovun başçılığı ilə Azərbaycana hərbi hissə göndərməli olur. V.Zubovun başçılığı altındakı hərbi hissə imperiyanın ən sınanmış hərbi alayı idi. Eyni zamanda da V.Zubov özünün qəddarlığı ilə tanınan generallardan idi. Qoşun hissəsi qısa bir zamanda Gəncəbasara daxil olmuş, burada olarkən Azərbaycanın əksər xanları onun hüzurunda olmuş, Rusiya himayəsində olmalarını bildirmişlər. Fürsəti əldən verməyən Mir Mustafa xan da həmin düşərgəyə gələrək V.Zubovla görüşmüş, beləliklə, Talış xanlığına Rusiya tərəfindən yardım göstəriləcəyinə əmin olmuşdu. Ağa Məhəmməd Qacar həmin hadisədən xəbərdar olduğundan, Azərbaycan ərazisindən (Şimali Azərbaycan) geri çəkilməli olur. Beləliklə, Rus qoşunlarının müşayiəti ilə Mir Mustafa xan dağıdılmış Lənkərana qayıdır. Rus hərbçilərinin köməkliyi ilə nəinki Lənkəran, habelə Talışın digər



downloaded from KitabYurdu.org

ərazilərindən Qacarların qovulması başa çatır. Lənkəranda bərpa işləri başlanır. Xan diyarın mahallarına baş çəkir, vəziyyətlə şəxsən tanış olur. Mir Mustafa xan Rusiyadan aldığı köməyə görə çarəsizlikdən Rusiyanın xoşuna gəlsin deyə, ərazisində məşhur olan Yeddi bulağı Zubovun adı ilə adlandırır.

Mir Mustafa xan qəlbən narahat adam idi. Rus qoşunlarının Talışa gəlməsini istəməsə də, başqa çıxış yolu yox idi. Çünki onun rus imperiyasından daha təhlükəli rəqibləri vardı.

Talış xanlığında yaşayan bir qrup iranpərəst Mir Mustafa xanla açıq şəkildə rəqabətdən çəkinsələr də, məkrli əməllərindən əl çəkməmişdilər, hətta Qafqaz qoşunlarının baş komandanı V.Zubovun ünvanına təxribat xarakterli məktublar göndərir və bildirirlər ki, Mir Mustafa xanın «yalvarışına» əhəmiyyət verməsin. Guya xan V.Zubova qarşı qəsd hazırlayır. Xəyanətkarcasına yazılmış belə məktubların birində deyilir: *«Sizi inandırırıq ki, Mir Mustafa xan öz nümayəndəsini şahın yanına göndərərək bildirmişdir ki, rus ordusu gəlir… onlara qarşı mübarizə aparmaq lazımdır».*[1] Həmin məktublara ali baş komandan heç bir əhəmiyyət verməmişdi. O, bunların xanın düşmənləri tərəfindən yazıldığına əmin idi. Mir Mustafa xan V.Zubovla görüşündə xanlığın Rusiya ilə əlaqəsində qəti mövqedə olmasına generalda yəqinlik yarada bilmişdi.

Nə qədər V.Zubov Qafqazda idi, Ağa Məhəmməd Qacarın Şimali Azərbaycana hücum etməyə cəsarəti çatmırdı. Qacar gözləmə siyasətindən istifadə edir,

[1] Firudin Əsədov. Talış xanlığı, səh. 59.



eyni zamanda da böyük hərbi qüvvə toplamaqla yanaşı, Avropa dövlətlərindən də köməklik alırdı. Qacarın səbri tükənsə də, çarəsizlikdən dözürdü. Nəhayət, 1796-cı ilin noyabrın 9-da P.Yekaterinanın ölümü, habelə Rusiya ilə Fransa arasında yaranan gərginlik general V.Zubovun Azərbaycandan geri-Peterburqa çağırılması ilə nəticələndi. V.Zubovun Azərbaycandan getməsindən Qacar çox sevinmiş və Talışa yeni hücumlar hazırlamaq qərarına gəlmişdi: Mir Mustafa xana qarşı Qacarın yeni təhlükəsi başlanır. Bu yürüşdə Qacarın atdığı ox daşa dəyir. O, Şuşada sui-qəsd nəticəsində qətlə yetirilir. Lakin ondan sonra hakimiyyətə gələn qardaşı oğlu Baba xan – Fətəli şah onun işini davam etdirirdi.

Qeyd etmək lazımdır ki, Talış xanlığında bəzi feodallar, Rusiya ilə Mir Mustafa xanın əlaqəsindən narazı olmuşlar. Onların bir qismi İrana meyilli idi. Belələrindən ən təhlükəli tanqabinli Allahverdi bəy olmuşdur.[1] Mir Mustafa xan Allahverdi bəyin hərəkətlərindən xəbərdar olduğundan bərk qəzəblənmiş, ona cəza fikirləşmişdi. Allahverdi bəyə hərəkətlərindən imtina etməsi barədə Mir Mustafa xan xəbərdarlıq etsə də, bəy inadından əl çəkməmişdi.

Başqa çarəsi qalmayan xan onu susdurmaq üçün hərbi dəstədən istifadə etmiş, hərbi dəstəyə müqavimət göstərmək iqtidarında olmayan Allahverdi bəy məğlub olmuş, İrana qaçmaqla canını qurtara bilmişdi.

Mir Mustafa xan Rusiya imperatoru ilə danışıqlar aparmaq üçün bir-birinin ardınca nümayəndələr göndərməyə başlayır. Belə ki, 1795-ci ildə Zaman bəyin

[1] Firudin Əsədov. Talış xanlığı, səh. 59.



downloaded from KitabYurdu.org

başçılığı ilə nümayəndə heyətini Qafqaz qoşunlarının baş komandanı general Qudoviçin yanına göndərmək qərarına gəlir. Rusiyadan üz çevirən Quba xanı Şeyx Əli xan (Fətəli xanın oğlu) Zaman bəy generalla görüşməyə imkan verməmiş Talışa qayıtmasına razılıq vermişdi.

Mir Mustafa xan bundan ruhdan düşməmiş, Rusiya ilə diplomatik danışıqlarını davam etdirməyə çalışmışdır.

1795-ci ildə Kərbəlayi Əsədullanın başçılığı ilə böyük heyətin yenidən Peterburqa getməsini təşkil etmişdi.[1] Kərbəlayi Əsədulla Mir Mustafa xanla qan qohumu idi. O, Lənkəranda tanınmış simalardan biri kimi saraydakı tədbirlərdə həmişə iştirak edən şəxslərdən olmuşdur.

Kərbəlayi Əsədulla bəy haqqında qovluq Rusiyanın Xarici Siyasət Arxivində saxlanılır. İlk dəfə tərəfimizdən həmin qovluq araşdırılmış, bu barədə mətbuatda və kitablarda məlumat verilmişdir.[2] O, fars ərəb və rus dillərini mükəmməl bilirdi. Məhz həmin qabiliyyətinə görə xan onun şəxsən Peterburqa getməsini, nəyin bahasına olursa-olsun imperatriça II Yekaterina ilə görüşməyi məsləhət bilmişdi. Kərbəlayı Əsədulla bəyin Peterburqa gedib qayıtması 6 ay çəkib. İlk növbədə o, Həştərxan general- qubernatoru ilə görüşmüş, general – qubernatorun razılığı ilə Peterburqa getməsinə Əsədulla bəylə söhbətindən, onun biliyindən, diplomatik məharətindən razı qalmışdı. Nümayəndə heyəti

[1] Rusiyanın Xarici Siyasət Arxivi, iş 4077, vərəq 368; Firudin Əsədəov. Lənkəranın Rusiyada ilk elçisi. «Leninçi», Lənkəran, 29 oktyabr 1995.
[2] Firudin Əsədov. XVIII əsr Azərbaycan diplomatları, Bakı, 1999, səh.76.



1795-ci ilin mart ayının 12-də, P.Yekaterinanın qəbulunda olmuşdur.

İmperatriça ilə danışıqlar uğurla nəticələnmişdi. Hətta P.Yekaterina Kərbəlayı Əsədulla bəyin diplomatik manevrlərindən, rus dilində sərbəst danışığından məmnun olmuş, ona şəxsi hörmətinin təzahürü kimi, öz sarayında qalmasına razılıq vermişdi…

Kərbəlayı Əsədulla bəy xanın imperatriçaya məktubunu təqdim edir. Məktubdan oxuyuruq: *«Xeyli vaxtdır ki, Talış xanlığı Rusiya ilə münasibət yaradır. Mən bir daha bildirirəm ki, sədaqətimə heç bir şübhə ola bilməz… Talış xanlığı Sizdən kömək gözləyir. Bunu da bildirirəm ki, sözümdə zərrə qədər şübhə yoxdur»*[1].

Kərbəlayı Əsədulla bəy ilə imperatriça arasında mehriban münasibət bir sıra məsələlərin də həllinə imkan vermişdir. Burada qeyd etmək yerinə düşərdi ki, heç bir xanlığın nümayəndəsi bu səviyyədə qəbul edilməmişdi. İmperatriça Kərbəlayı Əsədulla bəyə olan hörməti müqabilində Talış xanı Mir Mustafa xana Rusiyanın hərbi rütbəsi olan general - mayor rütbəsi, habelə hərbi rütbəyə məxsus geyim paltarı və digər əşyalar da təqdim olunmuşdur. Hətta general – mayor verilməsi barəsindəki fərman Kərbəlayı Əsədulla bəyə şəxsən təqdim olunur. Kərbəlayı Əsədulla bəy imperatriçanın etimadından istifadə edərək, onu inandırır ki, rus hərbi hissəsi Talış xanlığına gələrsə, ordunun bütün təminatını diyarın hakimi öz öhdəsinə götürür.

İlk növbədə bunu nəzərə alan imperatriça Həştərxan general qubernatoruna sərəncam verir ki, dərhal Talış xanlığını müdafiə etmək məqsədi ilə hərbi

[1] Rusiyanın Xarici Siyasət Arxivi. İş.477, vərəq. 367.



downloaded from KitabYurdu.org

hissə göndərilsin. Rus imperatriçası həmin köməyi təmənnasız etməmişdi. Bunun bir səbəbi Kərbəlayı Əsədulla bəyin imperatriçada yaratdığı xoş təəssürat ilə bağlı olsa da, digər səbəbi isə çar Rusiyasının Talış diyarına olan böyük marağı idi. Çar istəmirdi ki, böyük strateji mövqeyi ilə, habelə sərvətləri ilə tanınan, Azərbaycanın bu dilbər guşəsi İranın tabeliyində qalsın. Bununla əlaqədar olaraq, imperatriça Həştərxan general-qubernatoru general Qudoviçə bu vacib məsələ ilə əlaqədar xüsusi məktubunda yazır: *«Biz yaranmış vəziyyətə – Azərbaycan ölkəsində böyük əhəmiyyət kəsb edən Xəzərsahili boyunca uzanan bölgəyə xüsusi diqqət verməyə bilmərik… Azərbaycan xanlarını Rusiya himayəsinə dəvət etmək lazımdır. Bütün qüvvələr Ağa Məhəmməd Qacara qarşı birləşməlidir».*[1]

Ağa Məhəmməd Qacarın təhlükəsi sovuşan kimi, Talışı işğal etmək siyasətini onun qardaşı oğlu Baba xan davam etdirməyə başladı. Mir Mustafa xan Qacarların hiyləsindən xəbərdar olduğundan bilirdi ki, Fətəli şah Talışı işğal etmək üçün bütün qüvvəsini sərf edəcəkdir. Xan diyarda hərbi və iqtisadi hazırlıq işi aparmış, ordunun güclənməsinə xüsusi diqqət vermişdi. Lakin qüvvələr nisbəti şübhəsiz ki, İran şahının xeyrinə idi. Mir Mustafa xan yenə də Rusiyadan köməkliyə ehtiyac duymuş, vaxtı itirmədən xan Rusiyaya müraciət etmişdi. Mir Mustafa xan siyasətdə çox çevik şəxslərdən biri idi. O bilirdi ki, Fətəli xan məqam gözləyir. Talış xanlığına olan iddialardan heç bir zaman əl çəkməyib, gec-tez Talışa hücuma keçəcəkdir. Xan hadisələrin necə cərəyan edəcəyini çox yaxşı dərk etdiyindən

---

[1] Rusiya Dövlət Hərbi – Elmi Arxivi ,f – VUA, iş.288, vərəq.69.



tez nümayəndə heyətini hazırlayır və Həştərxan general – qubernatoru Knorringin qəbuluna göndərir.[1] Burada nümayəndələrin Peterburqa getməsi, imperatorla görüşməsinin məqsəd və vəzifələri nəzərdən keçirildikdən sonra xüsusi vəsatətlə razılıq ala bilirlər.

Mirzə Məhəmməd bəy Həştərxanda olarkən general – qubernatorla görüşündə Talış xanı Mir Mustafa xanın Rusiyaya olan sədaqətinin əbədiliyi haqqında onda yəqinlik yaratmışdı. Mirzə Məhəmməd bəyin özünəməxsus diplomatik məharəti, rus dilində sərbəst danışığı generalın diqqətini cəlb etmişdi.[2] Talış xanının nümayəndəsinin məqsədi barədə, general – qubernator, imperator I Pavelə məlumat vermək məqsədi ilə bir müddət nümayəndə heyəti Həştərxanda qalmalı olmuşdu. Sənədlərdən aydın olur ki, I Paveldən aldığı cavab isə belə idi. Heyətin Peterburqa gəlməsinə heç bir ehtiyac yoxdur, Rusiya daimi olaraq Talış xanlığına, İran təhlükəsinə qarşı köməklik edəcəyini bildirmişdi. Lakin nümayəndə heyətinin Peterburda getməsini məsləhət görməmişdi. Eyni zamanda general – qubernator Mirzə Məhəmməd bəyə I Pavelin cavab məktubu təqdim edilmişdi. Məktubda oxuyuruq: *«Talış Rusiya üçün böyük əhəmiyyət kəsb edir. Mir Mustafa Xana kömək etmək Baba xana qarşı tədbirlər görmək planlaşdırmağı vəd edir». Eyni zamanda bildirilir: «Mir Mustafa xanın tələbinə Rusiya biganə qala bilməz. Talışın əhəmiyyətini imperiya qiymətləndirir. Baba xana qarşı Talış xanlığına kömək göstəriləcəkdir».*[3]

---

[1] AKAK 1 cild, səh.643.
[2] Firudin Əsədov, XVIII əsr Azərbaycan diplomatları. Bakı, 2000-ci il. səh.45.
[3] AA, 2-ci cild, sənəd 1528, səh.747.



downloaded from KitabYurdu.org

Rus imperatoru I Pavelin 1800-ci il fevralın 14-də şəxsi imzası ilə bu barədə xüsusi sərəncamı da olmuşdur.[1]

Çar Rusiyasının belə mövqeyi bütün istiqamətlərdə xanlığın mənafeyini təmin edirdi. General-qubernator Кnorrinqə diplomatik məharət var idi, o, imperatorun sərəncamını əldə əsas tutaraq, Talış xanlığına daha çox diqqət verməyə başlayır. Birinci növbədə müvəqqəti olsa da Talış xanlığına kiçik hərbi qüvvə göndərir, eyni zamanda da Sara adasındakı rus hərbi eskadrilyasına bildirir ki, Talış xanlığına qarşı hər hansı təhlükə olarsa, köməklik olmalıdır. Həştərxan general - qubernatoru, İmperiyanın mənafeyini bütün Qafqazda qorumaq məqsədi ilə daha geniş tədbirlərə əl atır. Belə ki, o, Şimali Qafqazdakı ali baş komandanlığı ilə birlikdə Georgiyevskidə Azərbaycan xanlarının və Dağıstan hakimlərinin birgə yığıncağını təşkil etdi. Yığıncaqda Talış xanlığından da nümayəndə iştirak edirdi. Georgiyevski toplantısındakı görüşlər Azərbaycan xanları üçün birliyin əsasını qoydu. Rus tərəfi toplantıda iştirak edənlərə rəsmən elan edir ki, sizə həmişə köməklik ediləcəkdir.

Mir Mustafa xanın belə çevik hərəkətləri, İran şahının yuxusuna haram qatmışdı. Nə edəcəyi barədə düşünməyə onu vadar etmişdi. Baba xan isə özünəməxsus hiyləsini işə salmağa əl atmışdı. Yenidən Talışla «əlaqə» yaratmaq sevdasına düşür. Bu işdə Avropa missionerləri, diplomatları onun köməyinə gəlir. Həmin missionerlər arasında İngilis diplomatiyası öncüllər sırasında dayanırdı. Şah bilavasitə İngilis diplomatiyasının əsiri kimi idi. Şah hesab edirdi ki, bu diplomatların

[1] Bax: Yenə orada



köməkliyi və müdaxiləsi ilə Talış xanı Mir Mustafa xana təzyiqlər ediləcək, xanın bütün imkanları məhdudlaşacaq, müqavimət göstərmək imkanı olmayacaqdır. Avropa missionerlərinin məsləhəti ilə Mir Mustafa xanla İran şahı Fətəli şahın sərt mövqedə aparılan danışıqların dayandırılması barədə bir sıra tövsiyələrindən biri də hər iki tərəfin eyni dinə mənsubluğu barədə müraciət etmələri haqqında planlar hazırlandı və bu yolla Mir Mustafa xanı İrana qarşı sərt mövqedən uzaqlaşdırmaq isə əsas diqqət mərkəzində saxlanılırdı. İngilis diplomatları belə bir tövsiyə də hazırladılar ki, Fətəli şahla Mir Mustafa xan arasında qohumluq münasibəti yaradılsın. Fətəli şahın Mir Mustafa xana müraciət etməsi planlaşdırıldı. Mir Mustafa xanla həmin münasibətlərin arxasında yenə də hədələr dururdu. Mir Mustafa xan Lənkəranda mahal başçılarının, habelə saray əyanlarının iştirakı ilə toplantı çağırır. Toplantıda Mir Mustafa xan and içir ki, İran şahı ilə heç bir əlaqəyə yol verməyəcəkdir. Onun andı ətrafında mahal naibləri də birləşmiş, qəti mövqelərini bildirmişlər. Fətəli şah isə hiyləsindən əl çəkməmişdi. İranla birləşmək diyar üçün ölüm deməkdir. Şahın cürbəcür vədləri – «qonşuluq» bir «dinə mənsubluq» barədə söhbətləri gizli məkrdən başqa bir şey deyildi. Hətta Fətəli şahı «islamın düşməni» adlandırırdı.

Şah isə yenə də məkrli əməllərindən əl çəkmir. Yenidən Mir Mustafa xanla qohumluq əlaqəsinin yaradılması sevdasına düşür. O, Talış xanı Mir Mustafa xanın hüzuruna elçilər göndərərək xanın qızını oğlu üçün istədiyini bəyan edir. Nümayəndə heyəti Lənkərana gəldikdə Mir Mustafa xanın qəzəbi coşsa da səbr edib nümayəndənin məqsədini bildikdən sonra xan qə-



downloaded from KitabYurdu.org

zəblənərək, şaha belə bir cavab hazırlamışdı: *«Hərçənd ki, şahsınız, amma mən heç də sizdən əskik deyiləm, kişinin bir sifəti olar… Sizdə belə sifət yoxdur».*

Hətta nümayəndələrdən birinin Fətəli şahın yaxın qohumu olduğunu bildiyindən sərəncam verir ki, həmin adamın bığlarını kəssinlər, onlara deyir ki, daha sizi öldürmədim, amma Şaha deyin ki, bir daha ağılsız hərəkət etməsin, Talışdan ona pay olmaz.

Mir Mustafa xan təbiətən humanist olsa da, lazım gəldikdə sərtlik də göstərirdi. Şaha cavabı həmin sərtliyin bariz ifadəsidir. Xanın şaha hədələyəci məktubu, hətta yaxın qohumunu eybəcər vəziyyətə saldırması, Fətəli şahı həddindən artıq qəzəbləndirir.Mir Mustafa xanı diz çökdürmək üçün hiylələrini götür-qoy edir. Nəhayət, İngilis missioneri onun köməyinə gəlir. Onun Mir Mustafa xana ingilissayağı yazdığı məktubda oxuyuyruq: *«Hörmətli xan, nümayəndəniz (Mirzə Məhəmməd) İranda olarkən onun söhbətlərindən məmnun oldum. Həddindən artıq savadlı, Avropa sivilizasiyasından xəbərdar olan bir şəxsi gördükdə məndə belə bir inam yarandı ki, diyarınız xeyli inkişaf etmişdir. Xan, məktubu yazmaqda məqsədim odur ki, diyarınız xeyli füsunkardır. Xan, məktubu yazmaqda ikinci məqsədim odur ki, İran və Talış diyarı bir dinə – islam dininə mənsubdur, adət - ənənələriniz də biridir. Axı, belə olduqda xristian dövləti – Rusiyaya qovuşmaq düzgün deyildir. Xan, icazənizlə məktuba belə bir təmsil də əlavə etmək istəyirəm: «Bir gün keçi və at çəmənlikdə otlayırdı. Keçi həmin çəmənlikdə bütün otları xarab etmişdi. Yazıq at fikirləşdi ki, keçini çəmənlikdən qovsun. Çox fikirləşdi, mümkün edə bilmədi. Nəhayət, insandan kömək gözlədi ki, keçinin hərəkətlərindən onu xilas etsin. İnsan ata*



*minib keçini qovmağa başladı. Onda at insana təşəkkür etdi. Dedi ki, indi mənə imkan ver yaşayım. İnsan dedi ki, bu nə deməkdir, indi məni gəzdirmək istəmirsən? At dedi ki, artıq yorulmuşam. İnsan dedi ki, heç bir şey bilmirəm. Sən mənə lazımsan. Bu sənin vəziyyətinə oxşayır».*[1]

Mir Mustafa xan ingilissayağı missionerin məktubunu alıb nəzərdən keçirdikdən sonra həmin məktuba belə cavab verir: «Sizin başqalarının işinə qarışmağa haqqınız yoxdur. Xasiyyətlərinizdən əl çəkin!» Mir Mustafa xan artıq bildi ki, Fətəli şah bütün imkanlarını işə salmış, Avropadan missionerlər vasitəsi ilə məkrini həyata keçirmək arzusundadır. Həmin məkrdə Talış diyarı da ön sırada dayanır. Mir Mustafa xan Rusiyadan başqa heç bir ölkədən kömək ala bilməyəcəyini qəti şəkildə müəyyənləşdirmişdi. Zaman başqa bir zaman idi. Rusiya ilə İran arasında da Azərbaycana sahib olmaq üçün rəqabət günü-gündən şiddətlənirdi.

İmperiya Qafqazda mövqeyini gücləndirmək məqsədi ilə buraya böyük hərbi hissələrinin yerləşdirilməsini, həmin hərbi hissələrə kimin başçılıq etməsi məsələsini Senatda belə müzakirə etmiş, nəhayət Qafqaza – Azərbaycana yaxından bələd olan cəllad xislətli general D.P.Sisyanovu (o, general V.Zubovun Azərbaycana işğalçı yürüşündə iştirak etmiş və general V.Zubov onun sərtliyini qiymətləndirərək Bakı işğal olunduqda şəhərin hərbi komendantı təyin etmişdi) Qafqazda rus qoşunlarının ali baş komandanı təyin etdi. General Tiflisə gəlişinin ilk günündə Azərbaycana qarşı qəddar mövqe tutmuş, Azərbaycanı «həmişəlik»

---

[1] АКАК, 4-cü cild, səh.868.



downloaded from KitabYurdu.org

imperiyanın əsarətində saxlamaq arzusu ilə fəaliyyət göstərmişdi. General D.P.Sisyanov Azərbaycanın bir sıra diyarlarında insan qanı axıdıb. Balakən, Şəki zonasında, Gəncədə həmin qanlar da dəhşətli idi, onu belə cəlladlığından çəkindirməyə heç bir qüvvə cəsarət etmirdi. İmperator ona böyük səlahiyyət vermişdi. Gəncədə Cavad xanın qətlini təşkil etmiş, burada imperiya üçün sərvətlər əldə etmişdi. Mir Mustafa xan, generalın cəlladığından xəbərdar olduğundan çətin vəziyyətdən məharətlə istifadə etmişdi. Əks təqdirdə onları ağır cəza alacaqları ilə hədələmişdi. Həmin məktublardan birini də Mir Mustafa xan almışdı. Xan yollar axtarmış, başqa yol qalmadığından Rusiya ilə əvvəlki vaxtlarda olduğu kimi, indi də münasibətlərin yaxınlaşmasına diqqət verməyə başlamışdı, çünki İran təhlükəsi günü – gündən artırdı. İranı həmin münaqişəyə təhrik edən Avropa dövlətləri idi. Avropanın vədinə inanan Fətəli şah Rusiya ilə müharibəyə başlamaq qərarına gəlir. Müharibə meydanı Azərbaycan oldu. Mir Mustafa xan, İranın təhlükəsindən yaxa qurtarmaq üçün general D.P.Sisyanovun yanına xüsusi nümayəndəsini göndərmişdi. Mir Mustafa xanın nümayəndə heyətinə başçılıq edən Zaman bəy idi.[1]

Zaman bəy, Mir Mustafa xan tərəfindən xüsusi tapşırıqla getmişdi. Çünki xan, general Sisyanovun həddindən artıq sərtliyindən xəbərdar olduğundan hesab edirdi ki, cəllad xislətli general üçün «sədaqət» yox dərəcəsindədir. O bütün qüvvəsi ilə Azərbaycanı dağıtmağa, burada rus süngüsündən sipər çəkmək məqsədini

[1] Firudin Əsədov. VIII əsr Azərbaycan diplomatları.



daşıyır, o heç kimə fərq qoymurdu, istər itaət etmiş olsun, istərsə də itaətdən boyun qaçıranlar. Talışı da dağıntılar gözləyirdi. Müdrik xan, Zaman bəyi bu barədə məlumatlandırmışdı. Zaman bəyin böyük diplomatiya təcrübəsi olduğundan xan onun bu missiyanı da bacarıqla yerinə yetirəcəyinə inanırdı. Sisyanov həm də göndərilən hədiyyə həvəskarı idi. Onun bu xasiyyətini bilən Mir Mustafa xan da Zaman bəylə hədiyyələr göndərmişdi. Sisyanov xanın hədiyyələrini almış, lakin görünür ki, hədiyyələr generalı qane etməmişdi. Onun nəfsi sonsuz idi, «babası» I Pyotrun vəsiyyətini həyata keçirmək arzusunda idi. O, bütün Azərbaycana, Azərbaycanın incisi sayılan Xəzərə də birdəfəlik sahib olmaq istəyirdi. Talış ərazisi də Xəzərlə bağlı region idi. Zaman bəy Sisyanova xanın məktubunu təqdim edir. Məktubda, Talış ərazisində İran sərbazlarının talanlarından söhbət açılırdı. Sisyanov onsuz da İranla müharibə vəziyyətində idi. Nümayəndə heyətini arxayın salmaq məqsədi ilə Talış xanlığı ərazisində də əməllərini davam etdirəcəyini bəyan etmişdi. Zaman bəy çarəsizlikdən yalnız başını aşağı salmaqla etirazını bildirmək imkanında idi. Söhbətlərinin birində Zaman bəy, Sisyanova bildirir ki, Şamaxı xanı İranla əlaqə saxladığı üçün Talış ərazisində müharibə aparmaqla məşğuldur. Bunu eşidən Sisyanov cavab verir: «Şamaxı xanına cəza vermək borc olsun». Şamaxı xanı Mustafa xanla Salyan yaxınlığında döyüşlər aparırdı. Bu döyüşlərdə Mir Mustafa xanın qardaşı Bahadır bəy hətta əsir düşür.[1] Mir Mustafa xana qarşı digər iranpərəst qüvvələr də baş qaldırmışdı. Bu barədə arxiv sənədlə-

[1] AKAK, IV cild, sənəd 339, səh.73



downloaded from KitabYurdu.org

rində təkzib olunmaz faktlar vardır. Sisyanovun hədələrindən qorxuya düşən iranmeyilli qüvvələrin də Talış ərazisində talanları haqqında məlumatlar olduqca çoxdur.[1]

Sisyanov Gəncədə artıq cəllad kimi ad qazanmışdı. Gəncə xanını və ailə üzvlərini qılıncdan keçirmişdi. Döyüşdə sağ qalan Cavad xanın oğlu Uğurlu ağanı ələ keçirə blməməsindən narahat idi. O, Uğurlu ağanı müdafiə edənlər üçün cəza hazırladığını bəyan etmişdi. İş o yerə çatmışdı ki, Talış xanı Mir Mustafa xana qarşı olanlardan bir qismi Sisyanovu inandırmışdılar ki, Uğurlu ağanı başqa yerdə axtarmağa heç bir lüzum yoxdur. Uğurlu ağa Talışdadır. Mir Mustafa xan onu himayə edir, cəllad həmin danoslara inanmış, bir neçə dəfə hədələyici məktubla Mir Mustafa xana xəbərdarlıq etmişdi. Əslində isə Uğurlu ağa heç bir vaxt Talışda olmamışdı. Sisyanov isə bunu bəhanə edərək hədələrini bir-birinin ardınca Mir Mustafa xanın ünvanına göndərirdi. Mir Mustafa xan həmin hədələrdən özünü müdafiə etmək məqsədi ilə dəfələrlə Sisyanovun ünvanına cavab məktubları göndərmişdi. Mir Mustafa xan bir daha Mirzə Məhəmməd bəyin başçılığı ilə nümayəndə heyətini göndərməyə məcbur olur [2].

Nümayəndə heyəti 1802-ci ildə Sisyanov tərəfindən qəbul olunur. Qəbulda Mir Mustafa xanın Rusiyaya münasibəti bir daha təkrarlanır. Mirzə Məhəmməd bəy qəbulda olduğu zaman Sisyanovun ətrafında xristian keşişlərinin olması danışıqları çətinləşdirir. Sisyanova cavablar verərkən keşişlər dərhal işə qarışır və beləliklə, Məhəmməd bəyə mane olurdular. Aralarında er-

[1] АКАК, IV cild, sənəd 339, səh. 73.
[2] АКАК I cild, evində sənəd 1529, səh. 170



məni keşişləri daha çoxluq təşkil edirdi. Onlar Talış xanı Seyid Mir Abbasın Nadirin şahlıq mərasimində ermənilərin Talışda məskunlaşmasına etirazını bildirməsini də Sisyanova çatdırırlar. Mirzə Məhəmməd bəy bütün çətinliklərə baxmayaraq qəliz xislətli generalı bir qədər sakitləşdirə bilir, amma generalı Talış ərazisinə mütləq daxil olmaq istəyindən çəkindirmək mümkün olmur. Sisyanov Bakıya doğru hərəkət etdiyi zaman 1803-cü il iyulun 31-də yenidən Mir Mustafa xana məktub göndərir, Uğurlu ağa ilə bağlı iddiasını xatırladır.[1] Mir Mustafa xan da öz növbəsində Sisyanovu Talışa olan qəzəbdən uzaqlaşdırmaq məqsədi ilə 1804-cü il fevralın 4 - də general Sisyanova cavab yazır. Bildirir ki, çatdırılan xəbərlərin heç biri doğru deyil.[2]

Mir Mustafa xanla Sisyanov arasındakı yazışmalar arxivlərdə kifayət qədər vardır. Talış xanı knyaz Sisyanovun hədələrindən bərk narahat olmuşdu. Ancaq çıxış yolu tapa bilmirdi. İran tərəfindən də təhlükə geniş miqyas almışdı. İran tərəfi nəyin hesabına olursa olsun, Mir Mustafa xanı öz tərəfinə çəkmək cəhdlərindən əl çəkmirdi. Dəfələrlə xanla qohumluq əlaqəsini yaratmaq fikrini Mir Mustafa xan qəti şəkildə rədd etsə də yenə də Fətəli şah həmin bu təklifini təkrar edirdi. Fətəli şah, Mir Mustafa xanla qohum olan Nəzərəli xanın anasını belə həmin məsələyə aydınlıq gətirmək üçün səfərbər etmişdi. Mir Mustafanın qızı Qəmər ağa Ərdəbil xanı Nəzərəli xanın arvadı idi. Mir Mustafa xanın həddindən artıq inadını gördükdə, birinci zərbəni qohumu Ərdəbil xanı Nəzərəli xan görmüşdü.

[1] АКАК I cild, evində sənəd 1529, səh. 170
[2] Yenə orada



downloaded from KitabYurdu.org

İş o yerə çatmışdı ki, heç bir yerdən köməklik ala bilməyən Nəzərəli xan Ərdəbildən uzaqlaşmağa məcbur olmuşdur. Mir Mustafa xan da Nəzərəli xana yardım edə bilmirdi. Məcburiyyət qarşısında qalan Nəzərəli xan Ərdəbili tərk etməyə məcbur olur. Onun tərəfdarları isə dağlara çəkilmiş, Qacar tayfası ilə vuruşlardan əl çəkməmişdilər.

Mir Mustafa xan dəfələrlə rus hərbi qüvvələrinin baş komandanına müraciət etsə də, Nəzərəli xanın və ailəsinin Talış ərazisində qalması barədə xahişinə Rusiya tərəfi razılıq verməmişdi. Ərdəbil xanı və ailəsinin Talışda yox, Qarabağda məskunlaşmasına icazə verilmişdi. Göründüyü kimi, Mir Mustafa xan təklənir və həddindən artıq çıxılmaz vəziyyətə düşür. İran şahı yenidən hiyləsini işə salmış, Mir Mustafa xanı inadından əl çəkdirmək üçün onunla qohumluq məsələsini bir daha ortaya atır. Yenidən Mir Mustafa xanın qızını oğlu Əli xana verməyi təklif edir.[1]

Fətəli şah Fərəculla xanı (Nəzərəli xanın qardaşı), Nəzərəli xanın anasını Lənkərana Mir Mustafa xanın hüzuruna elçi göndərir. Mir Mustafa xan, qohumluq əlaqəsini nəzərə alaraq, Nəzərəli xanın anasını hörmətlə qarşılasa da, təklifi rədd edir. Nəzərəli xanın anası təkid edir ki, əgər Fətəli şahın təklifi qəbul edilərsə, aralarındakı ziddiyyətlərə son qoyulacaq. Nəzərəli xan yenidən Ərdəbilə qayıdacaqdır. Mir Mustafa xan isə bu təklifi qəti şəkildə rədd edir, Fətəli şahın oğluna veriləsi qızı olmadığını bildirir. Hətta söhbətarası belə bir fikir də söyləyir ki, əgər Talışdan bir iti belə Fətəli şah istəsə, ona verilməyəcəkdir. Bu, elçilərin bütün ümidlərini puç

[1] AKAK. IV cild. Sənəd 675. səh.362



edir. Şahın Mir Mustafa xana qarşı düşmənçiliyi daha da artır. Talış ərazisində təhlükələrin böyük miqyas alması reallaşır. Mir Mustafa xanın onsuz da ziddiyyətlərin dərinləşməsindən xəbəri var idi. Rusiya-İran müharibəsi hələ Talış ərazisinə gəlib çatmamışdı. Döyüşlər Azərbaycanın başqa regionlarında gedirdi. İran qoşunları isə artıq Talışda idi və onlar Talış xanlığının böyük ərazisini işğal edə-edə Lənkərana istiqamət almışdılar. Vəziyyətin gərginləşdiyini görən Mir Mustafa xan çarəsizlikdən ailəsi və qohumlarını əsir düşməsin deyə Lənkərandan Sara adasına köçürməyə məcbur olur. Özü isə Gamışavanda müdafiə mövqeyi seçir. İran qoşunu Lənkərana daxil olanda artıq şəhər boşaldılmışdı. Göründüyü kimi, İran tərəfi heç bir müqavimətə rast gəlmədən Lənkərana daxil olmuşdu. Lənkəran şəhərinin işğalı Mir Mustafa xan üçün böyük iztirab demək idi.

İran şahları həmişə Lənkərana böyük əhəmiyyət vermişdilər. Hətta İran qoşunlarının ali baş komandanı – şahın vəliəhdi Abbas Mirzə söhbətlərində dəfələrlə demişdir: - *«Lənkəran İranın ürəyidir».*

İran tərəfinin Lənkərana sahibliyi nəticəsində burada yaranan ağır vəziyyətə aydınlıq gətirmək məqsədi ilə sənədlərə müraciət edək.

Lənkəranda ağır vəziyyətin şahidi olanlardan biri yazır: *«1809-cu il avqustun 31-də Lənkərana gəldim. Küçələrdən keçərkən gördüm ki, şəhər boşdur. Qarşıya çıxan şəhər sakinləri ölüm cəzasına məhkum edilmiş kimi görünürdü. Onların üzlərində, gözlərində dərin bir hüzün var idi… Xanın isə istehkamda mənimlə söhbətində pərt idi, mülkünü, var – dövlətini və bütün Talış diyarını tərk*



downloaded from KitabYurdu.org

*edərək sahəsi 77 verstdən kiçik olan adada toplanmış 3 minlik əhalini görərkən adamın ürəyi əzabla çırpınırdı».*[1]

Başqa bir sənəddə Sara adasına köçürülənlərin ağır vəziyyəti haqqında belə bir məlumatı oxuyuruq: *«Mən əhalinin acınacaqlı vəziyyətini təsvir etməkdə özümü aciz hesab edirəm. Hər bir insan onlara nəzər yetirərkən vəhşi ürəyə malik olsa da, bəşəriyyətə rəğbətlə bir neçə dəfə köksünü ötürməlidir. Qabilin özü də belə bir vəziyyətdə diksinərdi. Bütün heyvanları ilə birlikdə o qədər də böyük olmayan adaya köçərkən özü üçün, ərzağı və heyvanı üçün yem ehtiyatı olmayan, qumluqda, palçıqda ömür keçirən, öz həyatını soyuğa, küləyə, çovğuna, qara, yağışa düçar edən əhalinin dəhşətli səhnələrini müşahidə edərkən ürək necə yanmaya bilər».*[2]

Sara adasında olan rus kapitanı Çelevin raportu da diqqəti cəlb edir: *«Boş adada həbs edilmiş Talış əhalisi dilənçi qorxusu və pis hava altında acınacaqlı bir vəziyyətdə işləyir, onların hər birisinin azuqəsi qurtarmışdır. Vəziyyət belə getsə əhalinin yarısı qalacaqdır. Onların başlıca əmlakı olan mal – qara yemsizlikdən ölür, adanı heyvan leşi bürümüşdü».*[3] Vəziyyətin həddindən artıq faciəli olmasından Mir Mustafa xan rahat nəfəs ala bilmirdi. Yenidən Rusiyaya müraciət etməyə məcbur olur. Mir Mustafa xan nəyin hesabına olursa-olsun Talış xalqını əzabdan qurtarmalı idi, dövran dəyişmişdi, hərc-mərclik dərin kök salmışdı. Artıq Tiflisdə rus qoşunlarının ali baş komandanı general Tormosov idi. Mir Mustafa xan həmin generalın hansı yuvanın quşu olmasından isə xəbərsiz idi. Bütün imkanlarından məhrum olan Mir Mustafa xan sınaq üçün 1808-ci il sentyabrın 10-də general Tormosova müraciət etməli olur. Həmin müraciətdə Mir Mustafa xan yaranan çətinliklər barədə, hətta vaxtı ilə Rusiyadan sığınacaq istəyən qohumu Nəzərəli xanın qardaşı Fərəculla xanın da İran şahının tərəfinə keçməsi, Talış xanlığına qarşı çıxması barədə məlumat vermişdi.

Məktubda qeyd olunur ki, Fərəculla xanın həyasızlığı o dərəcəyə çatmışdı ki, Fətəli şahın diktəsi ilə hədələr göndərir. Qızımı Fətəli şahın oğlu Əli ağaya verməyi tələb edir.[1]

Mir Mustafa xanın imkanları həddindən artıq məhdudlaşmışdı. Onun Lənkəranı tərk edib, Gamışavanda mövqe tutması, həmin mövqedən İranın böyük hərbi qüvvəsinə müqavimət göstərməsi çətin idi. Artıq Rusiya-İran müharibəsi Azərbaycanın digər regionlarında getdiyindən Talış xanlığında rus qüvvələri yox dərəcədə idi. Xanın aramsız müraciətlərinə kömək ediləcəyi bəyan edilirdisə də nəticəsi görünmürdü. Bütün bunlar Talış ərazisində İranın əl-qolunu açırdı. Fərəculla xan kimiləri artıq Muğan istiqamətindən Talış ərazisinə soxulmuşdu.

Mir Mustafa xanın həyəcanı məlum idi. Xan yenə də ümidini itirməmişdi, İran qoşunlarının Talış ərazisindən çıxarılmasına ümidlə yanaşırdı, lakin Fərəculla xanın Muğan istiqamətində hücumu onu daha çox narahat edirdi, çətin vəziyyətdə olmasına baxmayaraq tərəfdarlarını, başda oğlu Mir Həsən xan olmaqla, Fərəculla xanın Muğan istiqamətindən Talışa hücumunun qarşısını almaq üçün imkanı daxilində hərbi qüvvəsini

---

[1] AKAK IV cild. Sənəd 905, səh. 597
[2] Yenə orada, səh.. 97
[3] Yenə orada, səh. 597



---

[1] AKAK IV cild, Sənəd 905, səh. 597.



downloaded from KitabYurdu.org

səfərbər edir. Mir Həsən xanın bilavasitə hərbi hissəsi, Fərəculla xana ağır zərbə endirmiş, onu zərərsizləşdirmişdi. Beləliklə, Fərəculla xan geri qayıtmağa məcbur olmuşdu. Ən acınacaqlı hal orasında idi ki, Talışda iranpərəst qüvvələr də düşmənə kömək edirdi. Talış xanlığı əsil döyüş meydanını xatırladırdı, Mir Mustafa xan isə əmin idi ki, İran heç bir zaman Talışa sahib ola bilməz. Göründüyü kimi, təbiətən qürurlu olan Mir Mustafa xan, ən ağır anlarda belə sınmırdı. O, Rusiyanın köməyinə arxayın idi. Bilirdi ki, çoxsaylı müraciətlərə Rusiya biganə qala bilməz. Talışın strateji mövqeyi, sərvətləri Rusiya üçün həmişə maraq doğururdu.

Mir Mustafa xanın Gamışavanda müdafiə mövqe seçməsi təsadüfi deyildi. Bu məkan həm coğrafi, həm də strateji cəhətdən əlverişli idi. Mir Mustafa xanın buradakı hərbi hissəsində 3000 nəfərlik qüvvəsi var idi. Həmin hərbi dəstədə oğlu Mir Həsən xan və başqa oğlanları, habelə xana daha yaxın olan insanlar toplanmışdı. Həmin məkan hər tərəfdən keçilməz bataqlıqdan ibarət olub, müvəqqəti olaraq düşmən hücumlarından müdafiə olunmağa imkan verirdi. Mir Mustafa xan burada ikən yenə də Rusiyanın Tiflisdəki qoşunlarının ali baş komandanı general Rtişevə bir daha müraciət edir. Məktubunda rus qoşunlarının bir hissəsinin Talışa istiqamətləndirilməsini xahiş edir. Bu müraciətlər istər-istəməz Rusiyanın hakim dairələrini düşünməyə vadar etmişdi. Çünki İranla müharibə zamanı çar qoşun başçıları strateji mövqeyindən xəbərdar olduqlarından Talışı yaddan çıxara bilməzdirlər. Rus qoşunlarının Talışa gec göndərilməsinin də səbəbi var idi. Rusiya həmin dövrdə bir tərəfdən İranla,



digər tərəfdən də Fransa ilə müharibə vəziyyətində idi. Bütün bunlar Rus qoşunlarının Talışa daxil olmasına imkan vermirdi. Mir Mustafa xan vəziyyətin nə yerdə olduğunu bilirdi.

İran şahı Talışda talançılığını davam edirdi. Artıq Qarabağ istiqamətində İranın məğlubiyyəti hiss olunurdu. Əsgəranda Abbas Mirzənin məğlubiyyəti, çar Rusiyasının Talış xanlığına qoşun yeritməsinə imkan yaratdı. Aslandüzdə Abbas Mirzəni məğlub edən general Kotlyarevski ali baş komandanın tapşırığı ilə nəhayət, Talışa istiqamət götürdü. Rus qoşun hissələri 1812-ci ilin dekabrın 21-də Talış xanlığı ərazisinə daxil oldu. Mir Mustafa xan onları Qumbaşında qarşıladı. General Kotlyarevski Lənkəran şəhərində mövqe tutan İran qoşun başçısı Sadıx xana (Sadıx xan Sərab xanı idi, Qacardan sonra Fətəli şahla birləşmişdi) müqavimət göstərmədən təslim olmaq təklif edilsə də, inadkar Sadıx xan generalın məktubuna sərt cavab vermiş, son nəticədə 1812-ci il dekabrın 31-dən yanvarın 1-nə keçən gecə Lənkərandakı İran qoşunları məğlub olmuşdu. Sənədlərdə 4000 nəfərə kimi İran sərbazının məhv edilməsi, onlardan bir nəfərinin belə sağ qalmaması qeyd edilir. Mirzə Əhmədin yazdığı kimi: «Su yerinə qan axırdı». General Kotlyarevski özü də Lənkəran vuruşunda üç yerdən yaralanmış, 25 nəfər yüksək rütbəli zabit, 584 kiçik rütbəli zabit həlak olmuşdu. Sadıx xan bir neçə tərəfdarı ilə qaçmağa nail olur, lakin məğlubiyyəti Fətəli xan tərəfindən qəzəblə qarşılanır, həbs edilərək ayrıca zindanda bir neçə gün saxlanılandan sonra edam edilir.

Mir Mustafa xan Lənkərana qayıdır. Hədsiz əzablar və məşəqqətlər məğrur xanı əldən salmışdı. O



downloaded from KitabYurdu.org

hiss edirdi ki, gələcəkdə narazılıqların olmaması üçün ailə üzvləri arasında əmlak bölgüsü aparılmalıdır. Mir Mustafa xanın arvadı onun diyar üçün zəhmətini az qiymətləndirirdi. Bilirdi ki, arvadında olan hədsiz təkəbbür gələcəkdə ailə üzvlərinin arasında nifaq yarada bilər. Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun yazdığı kimi: *«Mir Mustafa xanın arvadı Fəxriyyə-Nisə xanım həddindən artıq təkəbbürlü idi. Qorxusu olmasaydı, xanlıq hakimiyyətinə sahib olmaq arzusunda idi».*[1] Mir Mustafa xan namuslu olduğundan 7 oğul və 4 qız doğub böyütmüş bu qadının təkəbbürünə dözürdü. Xan, ailə üzvləri arasında bölgünü belə müəyyənləşdirir: 1. Arvadı Fəxriyyə-Nisə xanımın adına olan əmlak (əmlak zinətli daş-qaşlardan ibarət idi) və onun üçün ayrılmış torpaq olduğu kimi saxlanıldı. Əlavə olaraq Dereq mahalından bir neçə kənd adına yazıldı. Belə bir qayda da müəyyən olundu ki, Fəxriyyə-Nisə xanımın sağlığında bütün gəlir ona çatmalı, öləndən sonra isə əmlak qızları arasında təqsim edilməli idi. 2. Mir Həsən xanın ixtiyarında olan əmlak saxlanıldı. Bədəlandan başqa bütün torpaqlar Mir Həsən xanda qaldı. Bundan başqa, Qızılağacın da ixtiyaratı onda saxlanıldı. Ona qədər kənd Qızılagac Əkbər bəy və İsmayıl bəy qardaşlarında idi. 3. Miyanguh, Bədəlan, Boradigahın yarısı Mir Hüseyn xana verildi. 4. Mir Məhəmməd bəyə Alar və Deleqradin torpaqları verildi. 5. Astara və Butəsərin bir hissəsi Mir Abbas bəydə saxlanıldı. 6. Bazardan gələn gəlir Mir Hidayət bəyə verildi və belə şərt qoyuldu ki, bazarın gəliri 4.500 manatdan artıq olduqda bacılarına da pay verilsin.

[1] AKAK IV cild, Sənəd 905, səh. 597.



Eyni zamanda xana xidmətdə fərqlənən mahal naiblərinə də diyarın bəzi ərazilərində pay ayrılmışdı. Həmin bölgünü Mir Mustafa xan imzası və möhürü ilə təsdiqləmişdi. Xan artıq əvvəlki imkana malik deyildi. Talışda rus hərbi hissəsi xanın daxili siyasətinə açıq-aşkar müdaxilə edirdi. Belə dərdə Mir Mustafa xan tab gətirmir və 1814-cü ilin yayında vəfat edir. Onun ölümü bütün Talış diyarında matəmlə qarşılanır. General – mayor rütbəsində olan, Rusiya ilə həmişə dostluq əlaqələrində sadiqliyi ilə seçilən Mir Mustafa xanın yas mərasimində Rusiya tərəfi də iştirak etmişdi.



downloaded from KitabYurdu.org

## MİR HƏSƏN MİR MUSTAFA XAN OĞLU

Mir Mustafa xan Talışinskinin vəfatından sonra hakimiyyətə kimin sahib olması məsələsi müzakirə olunanda saray əyanları birmənalı şəkildə Mir Mustafa xanın böyük oğlu Mir Həsən xana üstünlük verirlər. Həmin müzakirədə Mir Mustafa xanın vəsiyyətnaməsi də Mirzə Əhməd Mirzə Xudaverdi tərəfindən oxunur. Vəsiyyətnamə şəxsən Mir Mustafa xan tərəfindən imzalanmış və gizli şəkildə Mirzə Əhməddə saxlanılmasına etibar etmişdi. Təkcə Mir Mustafa xanın arvadı Fəxriyyə-Nisə xanım etiraz edir, təkəbbürlə deyir ki, hakimiyyət ona verilməlidir. Bir neçə ay Mir Mustafa xanı əvəz də etmişdi. Fəxriyyə-Nisənin təkəbbürü burada da özünü nümayiş etdirmişdir.

Bütün bunlara baxmayaraq, Mir Həsən xan Talışda xanlıq taxt-tacına (1814-1826) sahib olur. Mir Həsən xan Talış xanlığında özünəməxsus cəsurluğu ilə təhlükələri dəf etmiş, bilavasitə Mir Mustafa xan üçün dayaq olmuşdu. Digər tərəfdən də diyarın müxtəlif məsələlərinin yoluna qoyulmasında da xüsusi xidməti olmuşdu. Mir Mustafa xan da böyük oğlunun şəxsi keyfiyyətlərini digərlərindən artıq qiymətləndirmiş, onun təhsil almasına qayğı ilə yanaşmışdı. Mir Həsən xan sarayda dini təhsillə yanaşı dünyəvi təhsilə də sahib olmuş və eyni zamanda, gənc yaşlarından döyüş sirlərinə mükəmməl yiyələnmişdi.

Bəllidir ki, artıq xanlıqda Rusiyanın hərbi komendantı fəaliyyət göstərirdi. Mir Həsən xanı ələ almaq məqsədi ilə imperatorun xüsusi sərəncamı ilə xana polkovnik rütbəsi verilir.[1] Hərbi rütbə ilə yanaşı ona imperator tərəfindən qiymətli hədiyyələr də təqdim olunur. Həmin mərasimdə iştirak etmiş sarayın Mirzəsi Mirzə Əhməd Mirzə Xudaverdi oğlu «Əxbarnamə»də yazır: *«Mir Mustafa xanın övladları, kəndxudalar, kələntərlər, ağsaqqallar… Lənkəran məscidində toplandılar, Mir Mustafa xanın böyük oğlu Mir Həsən xanla yanaşı qardaşları – Mir Abbas bəy, Mir İsmayıl bəy, Mir Əkbər xan, Hidayət xan, Mir Kərim bəy və Talıb bəy burada idilər.*

*Bunların hamısı Mir Həsən xanın hakimiyyət taxtında oturmasına razılıqlarını bildirdilər. Onlar Mir Həsənə baş əydilər. Nökər kimi itaət əlini sinələrinə qoydular. Talış əyanları bü işdən razı qaldılar».*[2] Səidəli Kazımbəy oğlu isə bu məsələyə özünün «Səidiyyə» kitabında belə aydınlıq gətirir: *«Mir Mustafa xanın ölümündən sonra əlahəzrət rus imperatorluğunun rəhbərləri Talış hökumətinin idarəçiliyini Mir Həsən xana həvalə etdilər. Ona polkovnik rütbəsi verdilər. Həmçinin qızıl ulduz, üstü yazılmış və incilərlə bəzənmiş xəncər və ənamlar verib şərəfləndirdilər. Lakin ziddiyyətli tabeçiliyə görə Mir Həsən xandan qardaş və bacıları küsdülər, onların bu addımı çoxlarnın xoşunaı gəlmədi və hətta anası Fəxriyyə-Nisə xanımın da (o müvəqqəti olaraq xanlığa rəhbərlik edirdi) rus imperatorluğunun bu təyinatından acığı tutmuş, buna dözməyərək oğlan və qızların tutmuş, Mir Həsənə xana qarşı zidd mövqedə dayanmışdır».*[3]

---

[1] Bax: AKAK V cild. Sənçd 729, səh.603
[2] Mirzə Əhməd Xudaverdi oğlu. Göstərilən əsəri, səh. 56
[3] Səidəli Kazımbəy oğlu «Səiddyə» Bakı 2005, səh. 95



downloaded from KitabYurdu.org

Mir Həsən xanın hakimiyyətə gəlməsinə anası, bacıları, habelə anasının təsirinə düşmüş qardaşlarından bir neçəsi də razı deyildilər. Mir Həsən xana etirazını bildirmişdilər. Göründüyü kimi tündməcaz Fəxriyyə-Nisə xanımda olan yüksək təkəbbür onu doğma oğluna qarşı çıxmağa vadar etmişdi. Bunun təsdiqi kimi Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun bu barədə fikrinə müraciət edək. O yazır: *«Mir Mustafa xanın arvadı Fəxriyyə-Nisə xanım çox təkəbbürlü idi. Xalqın töhmətindən qorxmasaydı o, Talış hakimi olmaq iddiasına düşərdi. O da başqaları ilə birləşib Mir Həsən xana qarşı düşmənçiliyə başladı. Mir Həsən xan nə qədər nəsihət verib anasını doğru yola çağırdısa da bir nəticə vermədi».*[1] Mirzə Əhmədin yazdıqları daha inandırıcıdır, çünki o, hadisələrin bilavasitə iştirakçısı olmuşdur.

Onsuz da ağır olan şərait, yaranmış gərginlik, saraydakı ikitirəlilik Mir Həsən xanın işlərinə mənfi təsirini göstərsə də Mir Həsən xanı qorxutmurdu, daha fəal və müstəqil siyasət yeritmək, xalqın etimadını qazanmaq, xanlıqda bəzi zəruri islahatları həyata keçirmək arzusu ilə diyarın bütün regionlarına səfərlər edir, yerindəcə vəziyyətlə tanış olurdu. Atasının sağlığında da Mir Həsən xan diyarlarda tez-tez görünürdü. Talış xanlığına qarşı baş verən çətinliklərin aradan qaldırılmasında bilavasitə onun iştirakı diyarın insanlarına bəlli idi, məhz ona görə də hər yerdə böyük ehtiramla qarşılanırdı. Xalq bilirdi ki, vaxtı ilə ölkəsini tərk edərək İranda sığınacaq almış Bakı xanı Hüseynqulu xan öz hərbi dəstəsi ilə Talış xanlığı ərazisində qarmaqarışıqlıq saldıqda, onun zərərsizləşdirilməsində

[1] Mirzə Əhməd. Göstərilən əsəri, səh. 59



Mir Həsən xanın xüsusi rolu olmuşdur. Bu barədə Kazımbəy oğlu «Nasibüt-təvarix» kitabına istinadən «Cəvahir naməyi-Lənkəran» əsərində yazır: *«Gamışavanda (Lənkərandan bir qədər aralı) Mir Mustafa xan müdafiəyə çəkildiyi zaman Hüseynqulu xan Badikubəli (Bakı), Həşim xan Şirvani, Əli xan Rudbari Ucarud sərhədində mövqe tutmuşdular. Ucavurd beş hissədən – Adınabazar, Murankuh, Alar, Səfidəşt, Deleqarddan ibarət idi.*

*Ucarud sərhədində olan və mövqe tutan Bakı bəyi, Həşim xan Şirvani, Əlixan Rudbari və Məhəmməd Beqdeli Mir Mustafa xanın mövqelərinə yaxınlaşarkən onlara qarşı Mir Həsən xan hücum təşkil etmiş, Əliqulu xanı, Məhəmməd xanı və Nəsir xanın qardaşlarını əsir tutmuş, atasının mövqe tutduğu Gamışavana gətirmişdi».*[1] Həmin faktı digər sənədlər də təsdiq edir.

Mir Həsən xan Zuvand mahalında xanlığa təhlükənin olacağını hiss etdiyi üçün burada ordu hissəsinin artırılmasına xüsusi fikir verirdi. Digər tərəfdən həmin mahalın başçısı Nurulla bəyin şəxsiyyətindən təhlükənin aradan qaldırılacağına inamı həddindən artıq olmuşdur. Nurulla bəy Zuvand – Dereq mahalının başçısı kimi bu səlahiyyəti Mir Mustafa xanın hakimiyyəti zamanı qazanmışdı. Nurulla bəy sədaqətlə vəzifələrini icra edirdi. Burada belə bir faktı göstərmək lazımdır ki, Dereq mahalında Fəxriyyə-Nisənin qardaşı uşaqları yaşayırmış, onlar özlərini sərbəst aparır, bir çox hallarda ədəbsiz işlərlə məşğul olurdular. Bu hərəkətlər Nurulla bəyə təsir etmiş və onlara cəza verilməsi ilə bağlı Mir Həsən xanla məsləhətləşməni vacib saymışdı.

[1] Səidəli Kazımbəy oğlu. Göstərilən əsəri, səh. 96



downloaded from KitabYurdu.org

Nurulla bəy, Lənkəranda Mir Həsən xanla görüşərkən bu barədə xana fikrini çatdırır. Sənədlərin birində hadisə belə təsvir edilir: «Nurulla bəyin Mir Həsən xanla danışığında xanın anası Fəxriyyə-Nisə xanım da iştirak edirmiş. Fəxriyyə-Nisə xanım üzünü Nurulla bəyə tutaraq istehza ilə deyir ki, nə olmuşdur, qardaşım uşaqları bir qədər ərköyündürlər. Bu dağlılar qəribə adamlardır, vəzifəyə sahib olandan sonra özlərini sərbəst aparırlar. Fəxriyyə-Nisə xanıma Nurulla bəy cavabında deyir: *«Mən diyarın xanı ilə söhbət aparıram. Arvadların kinayə ilə məsələyə müdaxiləsinə ehtiyac yoxdur. Biz dağlılar həmin işə görə kimliyindən asılı olmayaraq, qadına da cəza veririk. Kişi danışan yerdə qadın susmalıdır. Xanım, əgər qardaşlarına heyfin gəlirsə, qoy getsin ata yurduna (Astara nəzərdə tutulur) orada əməllərini davam etdirsinlər*». Mir Həsən xan da Nurulla bəyi müdafiə edir. Beləliklə o, diyara-mahala qayıdan kimi Fəxriyyə-Nisə xanımın qardaşı uşaqları-Fəti bəyi, Nəcəfqulu bəyi (Nəcəfqulu bəy Cəngəmiranda böyük torpaqlar əldə etmişdi, hazırda da həmin sahə «xani hiyon – xan sahəsi, yeri» deyə adlandırılır) cəzalandırmış, hətta Fəti bəyin öldürülməsi barədə sərəncam vermişdi. Nəcəfqulu xan isə həmin mahaldan qaçmaqla canını qurtara bilmişdir. Mir Həsənin hakimiyyəti zamanı Talışda bir an sakitlik yaranmamışdı. Bir tərəfdən daxili qüvvələr (həmin qüvvəyə Fəxriyyə-Nisə xanım başçılıq edir), digər tərəfdən də İran tərəfdən vaxtaşırı müdaxilələrə, eyni zamanda da Lənkəran və Talışın müxtəlif yerlərində özünə məskən salmış rus qoşun başçıları sərbəst hərəkət edirdi. Həmin təzyiqlər komendant İlinski tərəfindən daha çox müşahidə olunurdu.



Göründüyü kimi, Mir Həsən xan böyük çətinliklərlə üz-üzə gəlmişdi. Lakin Mir Həsən xanın möhkəm iradəsi onun sınmasına imkan vermirdi. O özünü Mir Mustafa xana layiq oğul kimi aparır, çətinliklərə sinə gərmək üçün yollar tapırdı.

Mir Həsən xan atasının irsinə sadiq olan şəxs idi. O, ilk günlərdən başlayaraq bir sıra vacib tədbirlərin həyata keçirilməsinə - diyarda dağıdılmış yolların, körpülərin bərpasına, ticarət əlaqələrinin genişləndirilməsinə diqqət vermiş, bu yolla da Talışın iqtisadi həyatında dəyişiklik yaratmağa başlamışdır. Bu tədbirlər əksəriyyət tərəfindən sevinclə qarşılanırdısa da, ona əks olan daxili qüvvələrdə qısqanclıq hissləri yaradırdı. Mir Həsən xan birinci növbədə hərbi hücumlardan dağılmış Lənkəranın əvvəlki təbii füsunkarlığını bərpa etməyə başlayır. Lənkəran qalasını əvvəlki vəziyyətə gətirmək üçün düşünür. Hətta Rusiya hökumətinə yardım üçün müraciət edir. Belə güman edir ki, müraciət çar Rusiyası tərəfindən rəğbətlə qarşılanacaqdır. Lakin ona heç bir köməklik göstərilmir. Bunun da səbəbi vardı. İmperiyanın Talış xanlığında komendantı vardı və çar istəmirdi ki, Mir Həsən xan sərbəst hərəkət etsin. Çar üsul – idarəsi hər şeyin icrasını xandan gizlin olaraq komendant mayor İlinskiyə həvalə etmişdi.[1] Həmin vəziyyətdən Mir Həsən xan çıxış yolları axtarmış, Tiflisə rus qoşunlarının baş komandanına bu barədə məktubla müraciət etmişdi. Ali baş komandan general A.P.Yermolov Mir Həsən xanı heç bir vəchlə müdafiə etməmiş, məktublarına belə cavab verməmişdi. Yermolov şəxsən mayor İlinskini həmin diyara göndərmiş,

[1] Bax: Firudin Əsədov. Mayor İlinski kimdir? Xalq qəzeti, 1990—cı il. 14 oktyabr.



downloaded from KitabYurdu.org

ona xüsusi tapşırıq vermiş və Mir Həsən xana qarşı əks fəaliyyətdə olmağı ona tapşırmışdı.

Yermolov imperiyanın diktəsi ilə hərəkət edirdi. Onun Talış xanlığındakı məkrli siyasəti məhz imperiyanın istək və arzularından irəli gəlirdi. Mayor İlinskinin «qabiliyyətinə» bələd olduğundan oraya xüsusi tapşırıqla göndərilmişdi və Sara adasındakı rus qoşunlarını da bilavasitə İlinskinin ixtiyarına vermişdi. Sənədlərdən aydın görünür ki, İlinski Lənkəran şəhərində özünü sərbəst aparır, diyarın istədiyi yerində döyüşçüləri ilə hərəkət edirdi. İş o yerə çatır ki, komendant xanlığın daxili işlərinə müdaxilə edirdi. Mir Həsən xan dəfələrlə mayor İlinskiyə hərəkətlərindən əl çəkməyi təklif etsə də, nəticəsi olmur. O. Mir Həsən xanın hakimiyyətini zərərsizləşdirmək məqsədi ilə yerlərdə özünü əks əməliyyatçı kimi göstərir və saraydakı adamları pulla ələ alaraq, onları da Mir Həsən xana qarşı qaldırmışdı. Artıq Mir Həsən xanın imkanları günü-gündən azalırdı. Xan komendantın hərəkətlərinin qarşısını almaq məqsədi ilə onu saraya dəvət edir və «Siz hərbi komendantsınız, öz işinizlə məşğul olun» - deyə təpinir. «Xanlıq hakimiyyətinin işinə qarışmayın. Mən rütbəcə sizdən böyüyəm, həm də ölkənin sahibiyəm. Mənim sözüm sizin üçün də qanun olmalıdır».[1] Hədələr mayor İlinskiyə təsir etmir, yenə də özünü əvvəlki qaydada aparır. Bütün bunlar xanlıqda böyük gərginlik yaradır.

Vəziyyəti tam təsəvvür etmək üçün mayor İlinskinin kimliyinə aydınlıq gətirmək lazımdır. Mayor İlinski Talışa gələnə qədər Gürcüstan əyalətlərinin birində po-

[1] Bax: Firudin Əsədov. Mayor İlinski kimdir? Məqaləsi.



lis rəisi olmuşdur. Orada general Yermolovla tanış olmuş və onun etimadını qazanmışdı.

Beləliklə, mayor İlinskinin hər bir xanlıqda olduğu kimi hökmranlıq və təzyiqi həyata keçirmək üçün Talış xanlığı münasib sayılmış, 600 hərbçi ilə Talışa gəlmişdir. İlinski barədə tarixçi V.Potto belə yazır: *«İlinski meşşan, sərt və riyakar idi. Peterburqda yaşayarkən, artistlə evlənmiş, atası isə varlı məmurlardan idi. Lənkəranda komendant olarkən arvadı ilə əlaqəsini kəsmiş, beləliklə də subay şəxs kimi hərəkət edirdi».*[1]

Mir Həsən xan çıxılmaz vəziyyətdə olmasına baxmayaraq, bir sıra tədbirlər görməyə başlayır. İlk tədbir İlinskini zərərsizləşdirməkdən ibarət olur. Lakin hiss edir ki, mayorun hərəkətlərinə rəvac verən general A.P.Yermolovdur. Mir Həsən xan, dəfələrlə bu barədə ona müraciət etsə də, müsbət cavab ala bilmir. Artıq mayorun hərəkətləri ciddi cinayətlərin yaranmasına imkanlar yaratmışdı. Bu barədə faktlara müraciət edək:

General A.P.Yermolov 1826-cı ilin iyulun 2-də mayor İlinskiyə yazırdı: *«Talışa sizi göndərməkdə məqsədim var: Burada idarə işlərini ələ keçirmək, Mir Həsən xan üzərində nəzarəti artırmaq. Onu aradan qaldırmaq üçün bəhanələr* hazırlamaq». A.P.Yermolov bunun üçün yollar da göstərmişdi:«Mir Həsən xana imkan yaratmaq lazımdır ki, arabir İrana getsin. O, İranla əlaqə saxlamaqda təqsirkar bilinsin. Bundan başqa, xanın ailəsində narazılıq yaratmaq üçün çalışmaq lazımdır».

Göründüyü kimi, Talış xanlığının sərbəst fəaliyyət göstərməsinə Çar Rusiyası və onun yerlərdəki hərbçiləri

[1] Potto, Qafqaz müharibələri oçerki. SPB 1888-ci il. 3-cü cild, səh.108



downloaded from KitabYurdu.org

imkan vermirdilər və qoymurdular ki, Mir Həsən xan istədiyi kimi hakimiyyəti idarə etsin. Burada bütün hakimiyyətin vahid bir mərkəzə – Rusiyanın tabeliyinə verilməsi siyasəti əsas yer tuturdu.

Mir Həsən xan çıxış yolu axtarırdısa çox vaxt məqsədinə nail ola bilmirdi. Talış xanlığında ikihakimiyyətlilik yaranmışdı. Əgər Mir Həsən Talışın hakimi sayılırdısa, digər tərəfdən çarın Talışa təyin etdiyi komendantın hakimiyyəti də mövcud olmuşdur. Mayor hərbi qüvvəsinə söykənmişdi. Tiflisdən general A.P.Yermolovdan vaxtaşırı məsləhətlər alır, eyni zamanda buraya yeni hərbi qüvvələr də göndərilirdi. Bu da Rusiyaya olan sədaqətin son nəticəsi?! Artıq Rusiyanın və onun çarizm imperiyasının kimliyi üzə çıxırdı. Talış xanları Seyid Mir Abbasdan bəri Qara xan, Mir Mustafa xan, sonra isə Mir Həsən xanın hakimiyyəti dövründə Çar Rusiyasının bu diyarda apardığı gizli siyasi məqsədləri üzə çıxmışdı. Müstəmləkəçilik arzusu ilə yaşayan dövlətdən başqa bir şeyi gözləmək də qeyri-mümkündür.

Çar Rusiyasını yalnız hakimiyyətinin qüvvətləndirilməsi, sərvət toplamaq arzusu ön sırada dayanırdı, onun Azərbaycana böyük marağı məhz buna xidmət edirdi.

Talış xanı Mir Həsən xan hadisələrə seyrçi kimi baxa bilmir, yenə də yollar axtarırdı. Rusiya ilə konfliktə girməyə imkanı yox idi. İndi o, komendantın özbaşınalığına son qoymaq üçün yollar axtarırdı. Məcburiyyət qarşısında qalıb İlinskiyə bir sıra səlahiyyətlər verməyə məcbur olmuşdu. İlinski isə öz işində idi. Xanın verdiyi səlahiyyət onu təmin etmirdi, özü səlahiyyət sahibi olmuşdu. İş o yerə çatmışdı ki, xanın razılığı olmadan diyarın mahallarına sərbəst surətdə səfərlər edirdi.



Talış xanlığının əksər mahallarının sahibləri qorxusundan ona mane olmurdular. Təkcə Zuvand - Dereq mahalında ona xidmət edənlər tapılmırdı. Dəfələrlə mahalın sahibi Nurulla bəylə görüşmək arzusunda olmuşdusa da, Nurulla bəy ona əhəmiyyət verməmiş, hətta mayor İlinskinin mahalı tərk etməsi barədə sərəncam vermişdi. Məhz buna görədir ki, mayorla Zuvand– Dereq mahalının hakimi arasında ziddiyyətlər əmələ gəlmişdi.İlinskinin mahallara səfərində əsas məqsəd, ümumi vəziyyətlə tanış olmaq, tanınmış adamlar barədə məlumat əldə edib Yermolova ötürməkdən ibarət idi. Həmin məlumatlar əsasən Mir Həsən xan, Mir Həsən xandan narazı olan qardaşları, anası Fəxriyyə-Nisə xanım və Zuvand – Dereq mahalı hakimi Nurulla bəy haqqında idi. Hadisələrdən bir daha aydın olur ki, Talış xanı Mir Həsən xanın təkcə adı qalmışdı. Hər şeyə İlinski nəzarət edirdi. Mir Həsən xan son dəfə İlinskiyə cəza vermək barədə fikirləşdi, ona Sara adasına çəkilməyi təklif etdi. Lakin onun təklifi qəbul olunmadı. Lənkəran və onun mahallarından olan şikayətlər Mir Həsən xana yox, mayor İlinskiyə edilirdi, o isə şikayətçiləri qəbul edir, istədiyi kimi hökmlər verirdi.

Mayor İlinski barədə, təşkil olunan saxta məhkəmədə şahidlərin ifadələrinə, xüsusi ilə Mir Həsən xanın qardaşları tərəfindən sadalanan faktlara müraciət edək: Mir Həsən xanın qardaşı Mir Abbas bəyin ifadəsindən: *«Mayor İlinski Lənkəranda olarkən heç kəslə, hətta Talış xanı Mir Həsən xanla belə hesablaşmırdı. İş o yerə çatmışdı ki, Mir Həsən xana məxsus torpaqları belə istə-*



downloaded from KitabYurdu.org

*diyi adamlara paylayırdı». Hiyləgərlikdə tayı az tapılan İlinski, Mir Həsən xanı sıradan çıxarmaq məqsədi ilə xanın anası Fəxriyyə – Nisə xanımı belə oğlu Mir Həsənə qatı düşmən etmişdi».*

Bu barədə Talış xanlığı nəslindən olan, bir neçə kitabın müəllifi Səidəli Kazımbəy oğlunun «Cəvahirnameyi - Lənkəran» əsərində, daha sonra Mirzə Əhməd MİrzəXudaverdi oğlunun «Əxbarnamə»sində həmin faciə böyük ürək ağrısı ilə qələmə alınmışdır. Mayor İlinski elə harınlamışdı ki, istədiyi adamı, istədiyi vaxtda istintaqsız, əmlakına sahib olmaqla öldürürdü. Bir çox hallarda yerli tacirləri Sara adasına dəvət edir, əmlakını müsadirə etməklə yanaşı onları həmin adada boynuna daş asmaqla öldürürdü. İlinski Sara adasında xüsusi cinayətkarlar saxlayırdı. Həmin cinayətkarlara başçılıq edən, adadakı 2-ci alayın başçısı Levandin olmuşdur. 1826-cı ilin iyulun 2-də İlinski Levandinə yazır: *«Sara adasına gətirilən tacirlərə heç bir güzəşt ola bilməz. Dənizdə batırmaq lazımdır».* Bəzən qətllər tələsik icra olunurdu ki, heç meyidləri gizlətmək də mümkün olmurdu, bir müddətdən sonra meyidlər üzə çıxırdı, mayorun və onun Sara adasındakı iş icraçılarının cinayətkarlığı faş olurdu. Sonralar İlinski göstəriş verir ki, Sara adasında izi itirmək üçün ölümə məhkum etdiyiniz adamları yaxşı olardı ki, köhnə gəmilərin birində gəmi ilə birlikdə yandırın.

Daha artıq qol – qanad açmış mayor hələ Mir Mustafa xanın sağlığında ailə üzvləri arasındakı bölgüyə yenidən baxmış, onu istədiyi kimi təqsim etmişdi. Mir Həsən xan həmin özbaşınalıqla bağlı, hətta İlinskiyə hücumlar etmiş, onu öldürmək istəmişdi. 1825-ci il aprel ayının 9-da Fəxriyyə – Nisə xanım vəfat edir,



onun əmlakı 6.889 çervon və zinət şeyləri 24.321 manat idi, onların paylanmasına da mayor başçılıq etmişdir.

Mir Həsən xan ailəsi və yaxın tərəfdarları ilə birlikdə 1826-cı ildə İrana köçür. Beləliklə, xanlıq hakimiyyəti sona çatır. İlinskilər üçün meydan açılır. Son nəticədə dəfələrlə Mir Həsən xan Talışda xalq üsyanına başçılıq edir, rus qoşunları ilə vuruşur.1828-ci il fevralın 10-da bədnam Türkmənçay müqaviləsi ilə Talış xanlığı Rusiyanın ixtiyarına verilir. Mir Həsən xan isə 1831-ci ildə Tehranda şahın göstərişi ilə zəhərlənərək öldürülür…



downloaded from KitabYurdu.org

## N Ə T İ C Ə

Mir Mustafa xan XVIII yüzillikdə Talış diyarında ölməz, əbədi ad qoymuş və dünyasını dəyişmişdi.

El arasında: - «Xan ata köcdü dünyadan». «Xeyirxah əməlləri qaldı dünyada» deyənlər nə qədər də düz deyiblər. Xan dünyasını dəyişəndə bütün Talış mahalı, eyni zamanda qonşu xanlıqlar da kədərlənib. Mir Mustafa xanın heç kəsə bənzəməyən xarakteri zamanın hökmü, insanlığı, əxlaqının təmiz nəticəsi və doğma ocağa bağlılıqdan irəli gəlmişdi… Bu gün isə Mir Mustafa xanın vaxtı ilə Lənkəran şəhərini, həmin elin, obanın baş şəhəri seçməsi də təsadüfi deyildi. O, uzaqgörən insan idi, əsil torpağa bağlı xan idi… Onun dövründə siyasət, ən xırda, ən sadə adamlara qədər, hamıya şamil edilmişdi… Babaların «ehtiyat igidin yaraşığıdır» dediklərini Mir Mustafa xan həmişə öz əməllərində həyata keçirmişdi.

Mir Mustafa xan zamanında siyasəti elə aparmışdı ki, bir müddətdən sonra bu siyasət öz bəhrəsini vermişdi… Aylar, illər, yüzilliklər keçmiş, indi Lənkəran və Cənub bölgəsində yaşayan insanlar **Azad Azərbaycanımızın** ən öncül şəhərlərindən birinə çevrilmiş, şəxsiyyətləri isə öz əməlləri ilə dünyəvi şöhrət qazanmaqdadır. Yaxınları heç vaxt inanmırdılar ki, Mir Mustafa xan dünyadan köçəcək, haqqın dərgahına qovuşacaqdır. İnanmırdılar!… Elə yaxşı da edirdilər… Ulu tariximizin xanlıqlar dövründən, dünənindən sabah da adı çəkiləcək Mir Mustafa xan həmişə yad ediləcəkdir… Onu tanıyanların, qədirbilənlərin nəzərində Mir Mustafa xan həmişəyaşar ömürlü bir



qəhrəman, təmiz əxlaqlı bir ailə başçısı kimi zaman – zaman yaşamış və yaşayacaq. Onu yaddan çıxarmaq olmazdı. Talışlar demişkən o, «dəmir ağacı» kimi torpağının dərinliklərindən qidalanan bir ağaca bənzəyərdi… Zaman keçdi. Bu gün onun irsi sükuta dalmış arxiv sənədlərini vərəqləyir, faktları daha ətraflı öyrənir, sizlərə ərmağan olunan bu kitab da məhz ruhların bizə verdikləri qüvvədir… Tariximiz və tarixi şəxsiyyətlərimiz ətraflı öyrənilməlidir… Çarizmi Azərbaycana gətirənlərə (ermənilərin hiyləgərliyi ilə) qarşı bir sipərdir, çarizmin başımıza gətirdikləri mənfur əməlləridir. Qorxu xofları arasında insanlar həmişə əsarətdə olub… İşğallara cəsarətlə sinə gərən də dövrünün sevimli xanlarından olan Mir Mustafadır ki, onun həyat və fəaliyyətinin hərtərəfli öyrənilməsi **Müstəqil Azərbaycanımızın** bütün bölgələrinə nümunə ola bilər. Axı, millət, xalq həmişə özünün tarixi şəxsiyyətlərini həmişə yadda saxlayır və yeri gəldikdə onların əməllərini ətraflı öyrənir… El bayatılarında olduğu kimi Mir Mustafa xan da aşağıdakı misralarda həmişə yadda qalacaqdır.

Bostanda toxum ağlar,
Basma yarpağım ağlar.
Sağam, ay ana, özüm ağlaram,
Ölsəm-torpağım ağlar…

Həqiqətən də Mir Mustafa xan öləndə Talış diyarının bərəkətli torpaqları ağlamışdı… Deyilənlərə görə göydən yağan yağışlar o qədər olmuşdu ki, torpaq doymuş, göydən yağan sular da Mir Mustafa xana yas saxlamışdı… Yenə də el bayatılarında deyildiyi kimi,



downloaded from KitabYurdu.org

Sara adasında sığınacaq tapan Mir Mustafa xanın qəlbindən belə bir bayatı keçmişdi:

Su gəldi benddən getdi,
Kəklik kəmənddən getdi.
ALLAH sən rəhm elə,
Millətim əldən getdi.

Doğrudan da, 1813-cü il «Gülüstan» və 1828-ci il «Türkməncay» sazişləri bütöv Azərbaycanımızı bölüm-bölüm etdi… Mir Mustafa xan da idrakla, zəka ilə bunları görürdü. Daxilən əzablar çəkirdi. Nə etmək, düşmən qüvvətli idi…

Əlbəttə ki, bu əsər Mir Mustafa xanın həyatını, şəxsiyyətini hələ də tam açmır… Böyük bir hissəsi müəllifin bir tarixçi – araşdırıcı kimi, faktiki rəsmi arxiv sənədləri əsasında və təmiz tariximizin 20 yüzilliyin sonunda yazılmış bəzi kitablardan da bəhrələnib…

XVIII yüzillikdə yaşamış Mir Mustafa xanın ruhu və yadigarı olan bəzi sənədlərin işığında bacardığımız qədər qələmə aldığımız elmi-publisistik tarixi oçerk kitabında çalışmışıq ki, bəzi fikirləri XXI yüzillikdəki yaşayan gəncliyə keçmiş yüzilliklərdəki «qaranlıq səhifələr» haqqında düzgün tarixi gerçəkliyi çatdıraq. Bu bizim borcumuzdur. Buna nə qədər nail olmuşuq, deyə bilmərik. Söz sizindir, əziz oxucular.

**s o n**



**MİR MUSTAFA XAN NƏSLİNİN ŞƏCƏRƏSİ**
**1./ SEYİD MİR MƏHƏMMƏD**

**2./ SEYİD ABBAS BƏY /1748-1760/**

**Ö V L A D L A R I:**

**MİR TƏHMASİB XAN. MİR MƏHƏMMƏD BƏY. CƏMALLƏDİN /QARA XAN/**

**3./ SEYİD CƏMALƏDDİN QARA XAN /1760-1787/**

**SEYİD CƏMALƏDDİN – QARA XANIN ÖVLADLARI:**

**Mir Mustafa xan. Mir Əkbər bəy. Mir Mehdi bəy.**
**Mir Yəhya bəy. Mir Əsədulla bəy. Mir Bağır bəy.**

**4./ MİR MUSTAFA XAN /1787-1814/**



downloaded from KitabYurdu.org

**<u>MUSTAFA XANIN ÖVLADLARI:</u>**

**Mir Həsən xan. Mir Hüseyn xan. Mir Məhəmməd xan. Mir Abbas bəy. Mir İsmayıl bəy. Mir Əskər bəy. Mir Heydər xan. Mir Кərim bəy. Mir Talıb bəy. Mir Həmid xan. Qəmərağa Böyükxanım. Səkinə xanım. Bəyim xanım.**

**5./ MİR HƏSƏN XAN /1814-1826/**

**<u>MİR HƏSƏN XANIN ÖVLADLARI:</u>**

**Mir Abdulla bəy. Cavad bəy. Xanlar bəy. Кazım bəy. Nisə xanım. Zöhrə xanım. Sara xanım və s.**



MÜNDƏRİCAT

Redaktordan…………………………………… **3**

Hacı Mir Haşım Talışlı - Prezident təqaüdçüsü Mir Mustafa xan Qaraxan oğlu.……………….. **5**

Müəllifdən……………………………………… **9**

Mir Mustafa xanın əsil-nəsəbi…………………. **13**

Mir Mustafa xan Talışinski……………………… **45**

Mir Həsən Mir Mustafa xan oğlu……………….. **77**

Nəticə…………………………………………… **89**



downloaded from KitabYurdu.org

**Firudin Nurullabəyli – Əsədov**

---

**Mir Mustafa xan**
**(elmi – publisistik tarixi oçerk)**

*Çapa imzalanıb 10. 08.2007. Kağız formatı 60x84 1/16.*
*Həcmi 6 ç.v. Sifariş 115. Sayı 300.*
**-----------------------------------------------------------------------------**





downloaded from KitabYurdu.org